# SÜRƏT HƏVƏSKARLARI BAKIYA GƏLİR

Minlərlə sürət həvəskarının paytaxtımıza axını gözlənilir. Bakı Qran-Prisi dünya mətbuatının da diqqətindədir.

Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən bildirilib ki, "Formula-1" zamanı şəhər sakinlərinin və sürücülərin rahatlığını təmin etmək naminə bir sıra əsas yollar müəyyən saatlarda nəqliyyatın hərəkəti üçün açıq olacaq. Həmçinin, Üzeyir Hacıbəyli və Puşkin küçələrinin kəsişməsindən Bülbül prospekti istiqamətində yeni tranzit dəhliz təşkil olunacaq.

SƏHİFƏ 10-da



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

19 SENTYABR ŞƏNBƏ 2026 № 35 (4286) Qiyməti - 60 qəpik www.kaspi.az



## İSLAM HƏMRƏYLİYİNDƏN TÜRK BİRLİYİNƏ

Azərbaycan Türk və İslam dünyası, Qafqazın həm daxilində, həm də kəsişməsində yerləşir. Bununla belə, rəsmi Bakı hər üç məkanda sabitlik və sülhün mövcudluğunu, inteqrasiyanı, sürətli inkişaf kursunu dəstəkləyir.

SƏHİFƏ 3-də



## DİPLOMA GEDƏN YOL QISALIR?

Azərbaycanda təhsilin bakalavr pilləsində üç, magistratura pilləsində isə bir il olması təklif edilir. Mütəxəssislər hesab edirlər ki, təhsil sistemimiz həlalik dünyanın bir sıra ölkələrində tətbiq edilən bu yeniliyə hazır deyil.

SƏHİFƏ 11-də



## FINDIQ İXRACININ AZALMASINDAKI SİRR

Fındıq ixracının fiziki həcmi 22,5 faiz azalıb. Azalmanın əsas səbəbləri arasında daxili tələbatın və emal sənayesinin genişlənməsi göstərilir. Qarşıdakı illərdə yeni bağların məhsuldarlığa keçməsi ilə ixracın artacağı gözlənilir.

SƏHİFƏ 14-də

### BƏRPA OLUNAN SUVERENLİYİMİZ XALQIMIZIN MİLLİ SƏRVƏTİDİR

# DÖVLƏTÇİLİK TARİXİMİZİN ŞANLI SALNAMƏSİ



Antiterror əməliyyatlarının dövlətimiz üçün nəticələri olduqca böyükdür. Suverenliyin elanı ilə dövlət idarəçiliyi ölkənin bütün ərazilərində bərpa olundu. Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı.

**SÜLHƏ ZƏMİN YARADAN ƏMƏLİYYAT**

Azərbaycanın üç il öncə sentyabrın 19-20-də həyata keçirdiyi antiterror əməliyyatı ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpası ilə yekunlaşdı. Bununla da Cənubi Qafqazda hazırda mövcud olan sülh üçün əsaslı zəmin yarandı.

**BU GÜN YALNIZ BİR QƏLƏBƏ TARİXİ DEYİL**

Cənubi Qafqazda silahlı qarşıdurma dövrü başa çatdı. Bu missiya Azərbaycanın ali rəhbərliyinin qətiyyəti, uzaqgörənliyi və dəmir siyasi iradəsi, xalqın öz liderinə olan bağlılığı və sarsılmaz inamı, Silahlı Qüvvələrimizin peşəkarlığı sayəsində uğurla reallaşdırıldı.

SƏHİFƏ 4-də

"Gənc alimlərə səbirli olmalarını tövsiyə edərdim"

## "MƏNİM ÜÇÜN ƏSAS OLAN ELMDƏ İZ QOYMAQDIR"



Dünyanın ən nüfuzlu alimlərinin yeni reytinqində azərbaycanlı alimin də adı yer alıb. "Research.com" platformasının 2025/2026-cı il üzrə hazırladığı "Best Scientists in the World" siyahısında professor Abdulla Sofiyev mexanika və aerokosmik mühəndislik sahəsində Azərbaycandan reytinqə düşən alimlər arasında birinci yerdə qərarlaşıb.

SƏHİFƏ 8-9-da



## BAKININ AZADLIĞINA APARAN YOL

1918-ci il 15 sentyabr Azərbaycan Xalq Cümhuriyyətinin tarixində mühüm yer tutur. Məhz bu tarixdə Bakı düşmən işğalından azad edilərək Azərbaycan Xalq Cümhuriyyətinin yeni paytaxtı oldu.

SƏHİFƏ 6-da



## BÖYÜK BRİTANİYA ÜÇÜN YENİ SINAQ

ABŞ Prezidenti Donald Trampın səsləndirdiyi fikirlər İrlandiyanın birləşdirilməsi perspektivini yenidən diqqət mərkəzinə gətirib. Tramp ötən həftənin sonu vahid İrlandiya ideyasını dəstəklədiyini bildirib.

SƏHİFƏ 7-də



## FUTBOLÇULARIN TRANSFER QAYDALARI DƏYİŞİR

Ən mühüm yeniliklərdən biri odur ki, klub və futbolçu müqavilələri imzalayarkən onun vaxtından əvvəl pozulması halında ödəniləcək kompensasiyanın məbləğini əvvəlcədən razılaşdıra biləcəklər.

SƏHİFƏ 16-da



**İki dövlət, vahid strateji baxış**

SƏHİFƏ 5-də



**Şəhid ailələrinə daha 36 mənzil verilib**

SƏHİFƏ 2-də



**ADY Çindən 7 lokomotiv alıb**

SƏHİFƏ 2-də



**Məhsul var, qazanc yox**

SƏHİFƏ 12-də



**Ana özünü yaxşı hiss edir, bəs körpə?**

SƏHİFƏ 15-də



## Şəhid ailələrinə daha 36 mənzil verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 20 Sentyabr - Dövlət Suverenliyi Günü ərəfəsində şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 36 mənzil verilib. Mənzil İnşaatı Dövlət Agentliyinin Hövsan Yaşayış Kompleksində yerləşən mənzillərin sənədlərinin təqdim edilməsi tədbiri 4 saylı DOST Mərkəzində keçirilib. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin dövlət tərəfindən genişmiqyaslı sosial dəstək tədbirləri ilə əhatə olunduqlarını vurğulayıb.



## Azərbaycan Çindən yeddi lokomotiv alıb

"Azərbaycan Dəmir Yolları" (ADY) QSC Çindən 7 ədəd AC50 tipli lokomotiv alıb. "Report" xəbər verir ki, Çindən alınan lokomotivlər artıq Azərbaycana çatdırılıb.
Qeyd edək ki, lokomotivləri Çinin "CRRC Ziyang Co., Ltd" şirkəti istehsal edib. Xatırladaq ki, bu ilin iyununda ADY ilə "CRRC Ziyang" 4 ədəd yeni magistral sərnişin lokomotivinin alışı haqqında da müqavilə imzalayıb.



## Qida təhlükəsizliyi ilə bağlı ictimai dinləmələr

Milli Məclisdə "Keyfiyyətli qida sağlamlığa zəmanətdir" mövzusunda ictimai dinləmələr keçiriləcək. "Report" xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qurumun iclasında bildirib. Onun sözlərinə görə, dinləmələr Qida Təhlükəsizliyi Agentliyi ilə birlikdə təşkil olunacaq: "Bu, qarşıda duran vəzifələrin əhaliyə çatdırılması baxımından çox vacibdir".

# PREZİDENT VƏ BİRİNCİ XANIM ŞAMAXIDA



Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Nəsimi Bağları" kompleksi ilə tanış oldular. Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işləri ilə maraqlanıblar.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Şamaxıya səfər ediblər. Dövlət başçısı və birinci xanım bir sıra açılışlarda iştirak ediblər.

Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıda "Nəsimi Bağları" kompleksi ilə tanış olublar. "Nəsimi Bağları" kompleksi Şamaxı rayonunda yeni istifadəyə verilən, sakinlərin və qonaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün yaradılmış növbəti bir məkandır.

Kompleks Şamaxı rayonunda turizmin inkişafına töhfə vermək, bölgənin turizm potensialını artırmaq, ərazinin təbii xüsusiyyətlərini qorumaq, həmçinin ailəvi istirahətin və asudə vaxtın səmərəli təşkili üçün rahat mühit yaratmaq prinsip-ləri əsasında qurulub.



Çoxfunksiyalı turizm, mədəniyyət və rekreasiya layihəsi kimi fəaliyyət göstərən "Nəsimi Bağları" kompleksinin ərazisində müxtəlif istirahət obyektləri, ailəvi əyləncə infrastrukturu, fərqli mövzularda incəsənət nümunələri, iaşə obyektləri yerləşir.

Ərazidəki üçmərtəbəli əsas bina kompleksin informasiya və turizm mərkəzi funksiyasını yerinə yetirir. Burada ziyarətçilərə "Nəsimi Bağları"ndakı məkanlar, turist marşrutları və xidmətlər barədə məlumat verilir. Binanın daxilində ziyarətçilərin rahat və səmərəli vaxt keçirmələri üçün "Capybara Cafe" və suvenir mağazası var. Dördmərtəbəli digər korpusda Şamaxının qədim və müasir tarixini, mədəni irsini əks etdirən zəngin ekspozisiyaya malik muzey yaradılıb. Bu binada, həmçinin əsas restoran zalı, tədbirlərin keçirilməsi üçün zal və geniş terras var.

### "MAGİC VİLLAGE" HOBBİT EVLƏRİ

Kompleks ərazisindəki "Magic Village" hobbit evləri üslubunda inşa edilən tematik evlər, əsasən uşaqların maraqla qarşılayacağı "Honey Nest" kafesi, geniş uşaq oyun meydançası və hündürlüyü 9 metr olan baxış qülləsindən ibarətdir. Buradakı evlər tam yaşayış şəraiti ilə təmin edilib və turistlərin ilboyu qalması üçün nəzərdə tutulub. Qeyd edək ki, burada Azərbaycanda ilk və yeganə ixtisaslaşmış kapibara ferması - "Capybara Land" var. Fermada heyvanları yaxından görmək, toxunmaq və yemləmək mümkündür.

Kompleks ərazisində Azərbaycan, eləcə də xarici rəssam və heykəltaraşların yaratdığı 100-dən çox əsər və instalyasiya nümayiş etdirilir. Burada Azərbaycanın görkəmli şairi İmadəddin Nəsiminin müasir üslubda hazırlanmış abidəsi (instalyasiyası) də var. Hündürlüyü 21 metr olan abidə (instalyasiya) nəhəngliyi ilə diqqət çəkir və Şamaxının bir çox yerindən görünür.

## ŞAMAXIDAKI TARİXİ PİR ÖMƏR SULTAN ZİYARƏTGAHI

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıda Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işləri ilə də tanış olublar.

Tarixi Pir Ömər Sultan ziyarətgahı Şamaxı rayonunun Avaxıl kəndində yerləşir. Burada aparılan ilkin arxeoloji tədqiqatlar nəticəsində XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıya aid olduğunu təsdiqləyən artefaktlar tapılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2020-ci ildə Şamaxıya səfərləri çərçivəsində ziyarətgahda olub və abidədə konservasiya işlərinin aparılmasına dair tapşırıqlar veriblər.

Ziyarətgahın çay və qaya daşlarından tikilmiş qalıqları ötən müddət ərzində Heydər Əliyev Fondunun dəstəyi ilə konservasiya edilib. Ziyarətgahın içərisində Pir Ömər Avaxılıya, kənarlarında isə başqa şəxslərə aid 8 qəbir aşkar edilərək səliqəyə salınıb. Ziyarətgahın və onun ətrafının konservasiya işlərindən sonra qorunması üçün eyni daş materialından divar hörülüb. Divarın üzərində 16 metr hündürlüyündə səkkizbucaqlı metal konstruksiyadan hazırlanmış çardaq qurulub. Ziyarətgah və onun ətrafında konservasiya olunan sahədə buraya gələnlər üçün gəzinti zolağı yaradılıb. Aparılan işlər zamanı təbiətə və ətrafdakı qəbirlərə ziyan dəyməməsinə xüsusi diqqət yetirilib.

Qeyd edək ki, bu ziyarətgahın bərpası dini-tarixi abidələrin qorunub saxlanılması istiqamətində dövlət tərəfindən həyata keçirilən kompleks tədbirlərin tərkib hissəsidir.

Səfər çərsivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Pirqulu Park" hotelinin açılışında da iştirak ediblər.

# İSLAM HƏMRƏYLİYİNDƏN TÜRK BİRLİYİNƏ



Bu gün Azərbaycan özünün geosiyasi mövqeyinə görə üç böyük siyasi və iqtisadi məkanın - Türk və İslam dünyası, Qafqazın həm daxilində, həm də kəsişməsində yerləşir. Bununla belə, rəsmi Bakı hər üç məkanda sabitlik, inkişaf və sülhün mövcudluğunu, inteqrasiyanı, sürətli inkişaf kursunu dəstəkləyir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul etdi. Dövlət başçısı görüşdə bir sıra mühüm məqamlara toxundu, Azərbaycanın Türk dünyası, İslam aləmi ilə əlaqələrindən, keçmiş münaqişə nəticəsində Ermənistan dövlətindən miras qalan dağıdıcı mirasdan, bugünkü sülh gündəliyindən danışdı.

### HƏM TÜRK DÜNYASININ BİR PARÇASI, HƏM DƏ QAFQAZ ÖLKƏSİ

Dövlət başçısının çıxışı ölkəmizin mövcud beynəlxalq şərtlər daxilində artan geosiyasi əhəmiyyətinin, nüfuzunun, uzlaşdırıcı və barışdırıcı mövqeyinin göstəricisi kimi dəyərləndirilir. Prezident bildirdi ki, Azərbaycan həm Türk dünyasının bir parçasıdır, həm də Qafqaz ölkəsidir: "Bizim ölkəmizin tarixinə baxanda hər şey açıq-aydın görünür. Qədim Qafqaz Albaniyası məhz bizim ərazilərimizdə mövcud idi və qədim dövlətin paytaxtı Qəbələ şəhəri idi, bu gün də ölkəmizin ən gözəl yerlərindən biridir.

Qədim Atabəylər dövlətinin paytaxtı isə digər gözəl şəhərimiz Naxçıvan olmuşdur. Yəni bu bir daha göstərir ki, Türk dünyası və Qafqaz - bu iki məkan, əslində, vahid bir coğrafiyanı əhatə edirdi və Türk Dövlətləri Təşkilatına üzv olan yeganə Qafqaz ölkəsi Azərbaycandır. Təbii ki, bizim Türk dünyası ilə sıx əlaqələrimiz var, Qafqaz xalqları ilə sıx qohumluq, dostluq əlaqələrimiz var. Təbii ki, burada sizin bir yerdə olmağınız çox böyük rəmzi məna daşıyır. Çünki məhz belə birgə tədbirlər bizi daha da birləşdirir, aramızdakı dostluq, qardaşlıq əlaqələrini gücləndirir və dünyaya çox gözəl mesajlar verir.

Bugünkü dünyada və xüsusilə müsəlman aləmində baş verən bəzi hadisələr, təbii ki, bizim hamımızı narahat edir. Biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, İslam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək".

## "Bizim ümidlərimiz ondan ibarətdir ki..."

Dövlət başçısı qeyd edib ki, gələn il Bakıda İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü keçiriləcək. Dünyada gedən proseslərin fonunda belə bir tədbirin məhz Azərbaycanda keçirilməsi təsadüfi deyil: "Düzdür, bu qərar bir qədər əvvəl qəbul edilmişdir, amma, əslində, çox düzgün bir qərardır. Çünki bir daha demək istəyirəm ki, Azərbaycan təmsil olunduğu bütün təşkilatlarda birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi çıxış edir. Əminəm ki, gələn il Azərbaycanda keçiriləcək bu Zirvə Görüşünün çox gözəl nəticələri olacaq. Bizim ümidlərimiz ondan ibarətdir ki, o Zirvə Görüşünə qədər bəzi müsəlman ölkələri arasında gedən proseslər, anlaşılmazlıq, bəzi hallarda toqquşmalar başa çatacaq. Öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın. Bizi ayırmaq istəyən, əslində, İslam dininə zərbə vurmaq istəyən ünsürlər də öz yerlərinə otursunlar. Əlbəttə ki, biz ancaq müştərək səylərlə buna nail ola bilərik".

### "BU, BÜTÜN İSLAM DÜNYASINA BİR TƏHQİR İDİ"

Keçmiş münaqişəyə də toxunan Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan xalqı qan tökərək, döyüşərək torpaqlarını işğaldan azad edib: "Separatçı liderlər, hərbi cinayətkarlar, uşaq qatilləri bu gün Azərbaycan həbsxanalarında öz cəzalarını çəkirlər. Bu da ədalətin təntənəsidir. Yəni ədalət tam zəfər çalmışdır və Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir. Biz bu torpaqlara 30 ildən sonra qayıdanda nəyi gördük? Bunu indi bütün dünya görür - viran qoyulmuş şəhərlər, kəndlər, sökülmüş evlər, talanmış milli sərvətlərimiz, dağıdılmış məscidlər. 65 məscid Ermənistan dövləti tərəfindən, - mən xüsusilə bunu qeyd etmək istəyirəm, bu, Ermənistanın dövlət siyasəti idi, - Ermənistan dövləti tərəfindən tam dağıdılmışdır. Bəziləri yarıdağılmış vəziyyətdə idi. Yəqin ki, siz də o fotoları görmüsünüz, Ermənistan məscidlərdə bilərəkdən, qəsdən heyvan saxlayırdı, donuz saxlayırdı, inək saxlayırdı. Yəni bizi təhqir etmək, bizi aşağılamaq üçün, bizim həssaslığımızı dərk edərək, yəni qəsdən xalqımızı daha da incitmək üçün belə vəhşi əməllərdən də çəkinmədi. Əslində bu, təkcə bizə, xalqımıza yox, bütün İslam dünyasına bir təhqir idi. Bax, budur Ermənistan dövlətinin əsl siması. Biz bunu heç vaxt unutmamalıyıq və unutmayacağıq".

## AĞDAM MƏSCİDİNDƏ SEYYİD YƏHYA BAKUVİ KONFRANSI

Göründüyü kimi, bu gün Azərbaycan özünün geosiyasi mövqeyinə görə üç böyük siyasi və iqtisadi məkanın - Türk və İslam dünyası, Qafqazın həm daxilində, həm də kəsişməsində yerləşir. Bununla belə, rəsmi Bakı hər üç məkanda sabitlik, inkişaf və sülhün mövcudluğunu, inteqrasiyanı, sürətli inkişaf kursunu dəstəkləyir. Türk dünyasını özünün ailəsi hesab edən Azərbaycan dövləti daha böyük coğrafiyada İslam amilini əsas tutaraq mövcud münaqişələrin, qarşıdurmaların aradan qaldırılmasına mühüm töhfələr verməyə çalışır.

TDT Müsəlman Dini İdarə Rəhbərləri Şurasının 7-ci görüşü üçün Bakıya gələn nümayəndə heyətinin Qarabağa səfəri, mövcud reallıqları əyani şəkildə görmələri bu baxımdan mühüm əhəmiyyət daşıyır. Qeyd edək ki, Ağdam şəhərində TDT Müsəlman Dini İdarə Rəhbərləri Şurasının 7-ci görüşü çərçivəsində Şeyx Seyyid Yəhya Bakuvi Şirvaniyə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans keçirilib. Konfransda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə bir daha işğal dövründə Qarabağda 67-dən çox məscid və məbədin dağıdıldığını bildirib. O, Ağdam Cümə məscidinin də vandalizmə məruz qaldığını qeyd edib.



# DÖVLƏTÇİLİK TARİXİMİZİN ŞANLI SALNAMƏSİ



Antiterror əməliyyatlarının dövlətimiz üçün nəticələri olduqca böyükdür. Suverenliyin elanı ilə dövlət idarəçiliyi ölkənin bütün ərazilərində bərpa olundu. Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı. Uzun illər qanlı müharibələrə şahidlik edən Cənubi Qafqazda silahlı qarşıdurma dövrü başa çatdı.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın üç il öncə sentyabrın 19-20-də həyata keçirdiyi antiterror əməliyyatı ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpası ilə yekunlaşdı. Bununla da Cənubi Qafqazda hazırda mövcud olan sülh üçün əsaslı zəmin yarandı.

Bu gün üçrəngli müqəddəs Bayrağımız Azərbaycanın bütün işğaldan azad edilmiş ərazilərində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada, Xocavənddə, Ağdərədə, Xocalıda və Xankəndidə qürurla dalğalanır. Bu reallıq Azərbaycanın minlərlə qəhrəman övladının canı, qanı bahasına əldə edilib. 2020-ci ildə 30 illik işğala 44 gün ərzində son qoyan Vətən müharibəsi, 2023-cü ildə isə 100 illik separatizm ocağını cəmi 23 saata darmadağın edən antiterror əməliyyatları müstəqil dövlətçilik tariximizin ən şanlı salnamələri arasında yer alır.

Prezident İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başladığımızı xüsusi qeyd etdi və müasir tariximizin yeni dövrünün də məhz 2023-cü il sentyabrın 20-dən sonra başladığını diqqətə çatdırdı. Bildirdi ki, istər siyasi, hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi.

Sentyabrın 20-si antiterror əməliyyatları ilə separatizm qalıntılarından azad edilən şəhərlərimiz üçün də əlamətdar tarixdir.

Prezident İlham Əliyevin 2024-cü il sentyabrın 18-də imzaladığı Sərəncama əsasən, hər il sentyabrın 20-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə günü təntənəli şəkildə qeyd edilir. Bu gün Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin erməni sepratçılarından təmizlənməsindən və tarixi ədalətin bərpasından artıq üç il keçir.

## SUVERENLİYİMİZ XALQIMIZIN MİLLİ SƏRVƏTİDİR

Dövlət Suverenliyi Gününün əhəmiyyəti Prezident İlham Əliyevin müvafiq sərəncamında xüsusi qeyd olunur. Sərəncamda bildirilir ki, cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirib. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilib: "Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir".



## DÖVLƏT SUVERENLİYİ GÜNÜ YALNIZ BİR QƏLƏBƏ TARİXİ DEYİL

Bir gündən az davam edən antiterror əməliyyatlarının dövlətimiz üçün nəticələri olduqca böyükdür. Məhz bu əməliyyatlar nəticəsində suverenliyin elanı ilə dövlət idarəçiliyi ölkənin bütün ərazilərində bərpa olundu. Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı. Uzun illər qanlı müharibələrə şahidlik edən Cənubi Qafqazda silahlı qarşıdurma dövrü başa çatdı. Artıq separatizmi, işğalı özündə əks etdirən münaqişə ocağı tarixin qaranlıq arxivinə göndərilib. Bu missiya Azərbaycanın ali rəhbərliyinin qətiyyəti, uzaqgörənliyi və dəmir siyasi iradəsi, xalqın öz liderinə olan bağlılığı və sarsılmaz inamı, Silahlı Qüvvələrimizin peşəkarlığı sayəsində uğurla reallaşdırıldı. Artıq beynəlxalq aləmdə Azərbaycan adı gəldikdə işğala məruz qalan, suverenliyi pozulmuş ölkə yox, bölgəmizdə yeni reallıqlar yaradan, prosesləri yönləndirən, sürətlə inkişaf edən güclü, müstəqil və qalib dövlət statusu ön plana çıxır. Beləliklə, Dövlət Suverenliyi Günü yalnız bir Qələbə tarixi deyil, həm də gələcək nəsillər üçün dərsdir.

### XANKƏNDİ, XOCALI, AĞDƏRƏ, XOCAVƏND YENİDƏN QURULUR

Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilmiş ərazilərimizdə başlayan bərpa quruculuq prosesi suverenliyimizin tam bərpasından sonra Xankəndi, Xocalı, Ağdərə, Xocavənd rayonlarını da əhatə etdi. Bu gün həmin şəhərlər doğma Azərbaycanın bir parçası olaraq yenidən qurulur, separatizmin, işğalın açdığı dərin yaralar milli birliyimiz, gücümüz sayəsində sarılır, sağaldılır. Bir zamanlar işğal faktının əsas ünvanlarından sayılan Xankəndi bu gün Azərbaycanın ən sürətli inkişaf edən şəhərlərinin sırasında yer alır. Minlərlə tələbə Qarabağ Universitetində təhsil alır. Qan yaddaşımız olan Xocalıya yeni həyat qayıdır.

Azərbaycanın bütün ərazisində dövlət hakimiyyətinin təmin olunması ölkənin müstəqil dövlətçilik tarixində yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir.

Dövlət Suverenliyi Günü bir daha göstərdi ki, xalq və dövlət bir olduqda heç bir güc Azərbaycanın qarşısında dura bilməz.

# İKİ DÖVLƏT, VAHİD STRATEJİ BAXIŞ

Azərbaycan-Türkiyə münasibətləri qardaşlığa və strateji müttəfiqliyə əsaslanır. Bütün istiqamətlər üzrə əlaqələrin genişlənməsi məmnunluq doğurur. Ölkələrimiz həm xoş, həm də çətin günlərdə daim bir-birinin yanındadır.

ƏRTURAN İSMAYIL

Azərbaycan və Türkiyə strateji müttəfiq kimi nəinki bir-birinə hərtərəfli dəstək verir, eyni zamanda geosiyasi hadisələrlə çalxalanan dünyamızda xarici siyasətlərini uzlaşdırırlar. Hər iki ölkə Şuşa Bəyannaməsinin ruhuna uyğun olaraq müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərini qarşılıqlı şəkildə əlaqələndirir. Sentyabrın əvvəlində Qırğızıstanın paytaxtı Bişkek şəhərində İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüşdə də Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin qardaşlıq və strateji müttəfiqliyə əsaslandığı vurğulanıb, bütün istiqamətlər üzrə əlaqələrin genişlənməsindən məmnunluq ifadə olunub. Ölkələrimizin "Bir millət, iki dövlət" prinsipinə uyğun olaraq həm xoş, həm də çətin günlərdə daim bir-birinin yanında olduğu xüsusi qeyd edilib.

**BAKININ AZADLIĞI GÜNÜNƏ TƏSADÜF EDƏN SƏFƏR**

Bu münasibət hər iki ölkənin vəzifəli şəxsləri tərəfindən də davam etdirilir. Sentyabrın 15-də - Nuru Paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusunun 1918-ci ildə Bakını azad etdiyi günün 108-ci ildönümündə Türkiyənin Xarici işlər naziri Hakan Fidanın Azərbaycana səfərini də bu qəbildən dəyərləndirmək olar. Bakıda Prezident İlham Əliyev tərəfindən qəbul edilən Hakan Fidanın diqqətinə çatdırılıb ki, Azərbaycan-Türkiyə qardaşlıq və strateji müttəfiqlik münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunan dövlətimizin başçısı alternativ enerji istiqamətində beynəlxalq bazarlara yeni çıxış yolları ilə bağlı fikir mübadiləsi aparıb. Ölkələrimizin logistika baxımından əhəmiyyəti, o cümlədən Avropa ilə Asiya arasında mühüm körpü rolu oynadıqları vurğulanıb, beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizin əlaqələndirilməsinin önəmi qeyd olunub.




## İkitərəfli və çoxtərəfli əməkdaşlıq müzakirə edilib

Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Hakan Fidanla hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirib. Müzakirələr zamanı siyasi dialoq, iqtisadi və ticarət əlaqələri, sərmayə qoyuluşu, enerji, nəqliyyat-logistika, müdafiə və təhlükəsizlik, humanitar sahələrdə əməkdaşlıq, eləcə də regional və beynəlxalq təşkilatlar daxilində fəaliyyətin əlaqələndirilməsi kimi istiqamətlərə toxunulub. XİN başçıları institusional mexanizmlərin, o cümlədən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının, xarici siyasət idarələri arasında siyasi məsləhətləşmələrin həmiyyətini xüsusi vurğulayıblar.

Tərəflər həmçinin BMT, Türk Dövlətləri Təşkilatı (TDT) və digər beynəlxalq, eləcə də regional qurumlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Regional təhlükəsizliyin təmin edilməsində, iqtisadi tərəqqidə və qarşılıqlı əlaqələrin gücləndirilməsində üçtərəfli və dördtərəfli formatların, xüsusilə Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Pakistan-Türkiyə və Azərbaycan-Özbəkistan-Türkiyə platformalarının rolu qeyd edilib. Görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesində son bir il ərzində əldə olunan irəliləyişlər, habelə dayanıqlı sülhün bərqərar olması və regional əməkdaşlığın inkişafı istiqamətində atılan praktiki addımlar da müzakirə mövzusu olub.

**"PRİORİTETİMİZ BÖLGƏDƏ SÜLH VƏ SABİTLİKDİR"**

Diplomatlar jurnalistlərin suallarını da cavablandırıblar. Hakan Fidan bildirib ki, Türkiyə-Azərbaycan münasibətləri müttəfiqlik səviyyəsinə qaldırılaraq müdafiə və təhlükəsizlik sahəsindəki əməkdaşlığa güclü bir zəmin hazırlanıb. Onun sözlərinə görə, Silahlı Qüvvələrimiz arasında keçirilən birgə təlimlər, təhsil və təcrübə mübadiləsi fəaliyyətləri ilə müdafiə sənayesi qurumlarımız arasında getdikcə dərinləşən iş birliyi bu tərəfdaşlığın sahədəki konkrekt təzahürləridir: "Önümüzdəki dövrdə də bu sahədəki fəaliyyətlərimizi qarşılıqlı ehtiyaclar və imkanlarımız çərçivəsində irəlilətməyə qərarlıyıq. Bildiyiniz kimi, Qarabağ işğal altında olduğu illər ərzində Türkiyə Azərbaycanın haqlı davasını dəstəkləmişdir. Bu gün də prioritetimiz bölgədə sülh, sabitlik və rifahın davamlı olaraq bərqərar edilməsidir. Azərbaycan və Ermənistan arasında yekun sülhə nail olunması istiqamətində son dövrdə əldə edilən irəliləyişləri və Azərbaycanın bu məsələdəki qurucu mövqeyini məmnuniyyətlə izləyirik. Bu prosesin tamamlanması ilə bölgəmizdə yeni bir əməkdaşlıq dövrünün başlayacağına da inanırıq. Cənubi Qafqazın münaqişələrlə deyil, sülhlə, nəqliyyat, energetika, ticarət və iqtisadi tərəqqi ilə xatırlanmasını arzulayırıq".

## DÜNYADA BƏNZƏRİ OLMAYAN DOSTLUQ NÜMUNƏSİ

Xarici işlər naziri Ceyhun Bayramov isə Türkiyə-Azərbaycan dostluğunun dünyada bənzərinin olmadığını diqqətə çatdırıb. O bildirib ki, iki ölkə arasında təmaslar daimi davam edir: "İki ölkə arasında ticarət dövriyyəsi 2025-ci ildə 5.7 milyard ABŞ dolları, bu ilin hazırkı dönəminədək 3.2 milyard dollar olub. Azərbaycan Türkiyəyə 20, Türkiyə isə Azərbaycana 18 milyard dollara yaxın investisiya yatırıb. 4 mindən çox Türkiyə şirkəti Azərbaycanda fəaliyyət göstərir".

Hakan Fidanın Bakıda olduğu gün paytaxtımızda Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi tərəfindən "Türk dünyası dialoqları: Ortaq gələcək, ortaq vizyon" adlı panel iclası keçirilib. Bu iclasda Türkiyə Prezident Administrasiyası Kommunikasiya İdarəsinin və Azərbaycan rəsmiləri, Milli Məclisin deputatları, hər iki ölkədən ekspertlər, media nümayəndələri iştirak ediblər. Panel iclasında Türk dünyasında əməkdaşlığın inkişafı, ortaq dəyərlər və ortaq gələcək vizyonunun formalaşdırılması, informasiya və kommunikasiya sahəsində qarşılıqlı fəaliyyət, eləcə də qlobal çağırışlar fonunda Türk dövlətləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi məsələləri müzakirə olunub. Bütün bunlar göstərir ki, əsası Ümummilli Lider Heydər Əliyev və Mustafa Kamal Atatürk tərəfindən qoyulan, müasir dövrdə prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi, həmçinin təşəbbüsü ilə formalaşan, eləcə də Şuşa Bəyannaməsində öz əksini tapan strateji müttəfiqlik münasibətlərinə dair bütün məsələlər gerçək həyatda öz təsdiqini tapır.

# BAKININ AZADLIĞINA APARAN YOL

1918-ci il 15 sentyabr Azərbaycan Xalq Cümhuriyyətinin tarixində mühüm yer tutur. Məhz bu tarixdə Bakı düşmən işğalından azad edilərək Xalq Cümhuriyyətinin yeni paytaxtı oldu.

ELMAN MİRZƏYEV
TARİX ÜZRƏ FƏLSƏFƏ DOKTORU

Bakının Azərbaycanın müstəqilliyinə qarşı çıxan düşmən qüvvələrdən azad olunması üçün Qafqaz İslam Ordusu tərəfindən 1918-ci il sentyabrın 14-15-də döyüş əməliyyatı həyata keçirilib. Əməliyyat Bakı şəhərində hakimiyyəti ələ keçirmiş "Sentrokaspi diktaturası"nın əsasən daşnaklardan ibarət qoşunlarına və onun çağırışı ilə Bakıya gəlmiş ingilis hərbi qüvvələrinə qarşı aparılıb.

Bakının azad edilməsi üçün ilk cəhd 1918-ci il avqustun 5-də göstərilib. Həmin gün Qafqaz İslam ordusu Şərq cəbhəsi komandanı Mürsəl paşanın rəhbərliyi ilə Qurd qapısı istiqamətindən hücum edib. Hücumun əsas zərbə qüvvəsini Qafqaz İslam Ordusu hissələrinin Şimal qrupu təşkil edirdi. Bu qrupun qüvvələri 9-cu, 10-cu, 13-cü və 38-ci türk alaylarının bölmələrindən, iki Azərbaycan süvari alayından, Sumqayıt dəstəsindən və digər bölmələrdən ibarət idi. Azərbaycan hərbi qüvvələrinin üstünlük təşkil etdiyi Cənub qrupu isə Puta-Ələt arasında mövqe tutmuşdu. Polkovnik Həbib bəy Səlimovun rəhbərlik etdiyi bu qrupa Xəzərsahili ərazilərin və Bakıya aparan yolların təhlükəsizliyini təmin etmək tapşırılmışdı. Amma avqustun 5-dəki döyüşlərdə Qafqaz İslam Ordusu qarşıya qoyulan vəzifəni yerinə yetirə bilmədi.

### UĞURSUZLUĞUN SƏBƏBLƏRİ CİDDİ TƏHLİL OLUNDU

Avqust döyüşlərinin nəticələri Qafqaz İslam Ordusu komandanı Nuru paşa, Əlahiddə Azərbaycan korpusunun komandanı Əlağa Şıxlinski tərəfindən ciddi təhlil olundu. Nəticə olaraq əvvəlcə Bakı ətrafındakı hərbi qüvvələr möhkəmləndirildi, Süleyman İzzət bəyin komandanı olduğu 15-ci firqə Türkiyədən Azərbaycana göndərildi. Bu firqə Biləcəri istiqamətində yerləşdirildi. Xidmətə çağırılmış azərbaycanlılar hesabına Beşinci Qafqaz firqəsinin canlı itkiləri qismən bərpa edildi. Bakıətrafı kəndlərin əhalisi şəhərin azad edilməsinə səfərbər olundu. Bu kəndlərin silah tuta bilən sakinləri Maştağa dəstəsində, digər könüllü dəstələrdə, süvari bölmələrində birləşdilər, Bakının şimal-şərqi boyunca uzanan döyüş xəttində mövqe tutdular. Qüvvələrin silah, sursat və ərzaq ehtiyatlarının aradan qaldırılması üçün Azərbaycan hökuməti ilə birgə lazımi tədbirlər görüldü. 5 avqust döyüşündən sonra hissə və bölmələrdə yaranmış ağır mənəvi-psixoloji durum aradan qaldırıldı. Əsgər və zabitlərin döyüş ruhunun qaldırılması üçün hərbi hissələrin şəxsi heyətinə ünvanlanmış xüsusi bir müraciət də qəbul edildi.

### İNGİLİS GENERAL ETİRAFA MƏCBUR EDİLDİ

Qafqaz İslam Ordusu komandanlığı Bakının azad olunması üçün daha çevik taktikanı nəzərdən keçirməyə başladı. Qurd qapısı əsas zərbə istiqaməti kimi saxlansa da, əməliyyatın şəhərətrafı dairəvi xətt üzrə aparılması məqsədəuyğun sayıldı. Bakının azad olunması üçün Abşeron yarımadasının bir sıra strateji əhəmiyyətli məntəqələrinin ələ keçirilməsi üçün mövqe döyüşləri reallaşdırıldı. Onların ən əhəmiyyətlilərindən biri Binəqədi döyüşü idi. Avqustun son günlərində baş tutan bu döyüşün uğurla başa çatdırılması Nuru paşaya "Sentrokaspi"-ingilis qüvvələrinin əhatə zolağını daha da daraltmaq imkanı verdi. Məhz bu döyüşdən sonra Bakıdakı ingilis qüvvələrinin komandanı general Denstervill Qafqaz İslam Ordusu qüvvələrinə müqavimət göstərilməsinin mümkünsüzlüyünü etiraf etdi.

### NURU PAŞA TƏRƏFİNDƏN HAZIRLANAN HƏLLEDİCİ HÜCUM PLANI

Şəhərin azad olunması üçün keçiriləcək əməliyyata hazırlıq işləri başa çatdıqdan sonra Nuru paşa, Xəlil paşa, Əlahiddə Azərbaycan korpusunun komandanı Əlağa Şıxlinski və digər yüksək rütbəli zabitlər Bakı ətrafına gəldilər. Qafqaz İslam Ordusu komandanlığının qərargahı Güzdəkdə, 5-ci Qafqaz firqəsinin qərargahı Qobuda, 15-ci türk firqəsinin qərargahı isə Masazırda yerləşdirilmişdi. Hücum planına əsasən, 5-ci firqə Qurd qapısı-Xırdalan xətti arasında, 15-ci firqə isə Biləcəri istiqamətindən başlayaraq Zığ burnuna qədər olan ərazidə mövqe tutmuşdu. Əlahiddə Azərbaycan korpusuna daxil olan hərbi hissələr və könüllü Azərbaycan dəstələri də bu firqələrin əməliyyat tabeliyinə verilmişdi. 4-cü Azərbaycan piyada alayı, süvari və topçu bölmələri 5-ci firqənin hücum sahəsində iştirak edirdilər. Azərbaycan milli qüvvələrinin süvari alayları, Maştağa dəstəsi və digər könüllü dəstələr isə 15-ci firqə komandanlığının əməliyyat tabeliyinə verilmişdi. Biləcəridən başlayaraq, Zığ burnuna qədər olan xətt boyunca, əsasən, Azərbaycanın milli qüvvələri döyüşürdülər.



## "SENTROKASPİ"-İNGİLİS QÜVVƏLƏRİNƏ AĞIR ZƏRBƏ ENDİRİLDİ

Qafqaz İslam Ordusu qüvvələri sentyabrın 14-nə keçən gecə başlanan hücumla qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdilər. "Sentrokaspi"-ingilis qüvvələrinin güclü müqavimətinə baxmayaraq, məqsədə nail olundu.

Elə həmin günün axşamı ingilis qüvvələri Bakını tərk etdilər. Sentyabrın 15-də isə döyüşlər o qədər də uzun sürmədi. Bakını nəzarətdə saxlamağa çalışan qüvvələr xarici ölkələrin konsulluqlarının nümayəndələrinin iştirakı ilə aparılan danışıqlarda şəhəri təhvil verməyə razı olduqlarını bildirməyə məcbur oldular. Bununla da, türk-Azərbaycan qüvvələrinin Bakının azad olunması üçün apardıqları iki günlük əməliyyat parlaq qələbə ilə başa çatdırıldı. Sentyabrın 16-da qələbə münasibətilə türk-Azərbaycan hərbi hissələrinin Bakı ətrafında paradı keçirildi.

Müstəqil Azərbaycan dövlətinin yeni paytaxtı Bakının işğaldan azad edilməsi ilə bağlı hökumət başçısı Fətəli xan Xoyski öz minnətdarlığını və təbrikini Nuru paşaya bu sözlərlə bildirmişdi: "Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətim, zati-həmiyyəti-pərvarənənizə və dünyanın ən cəsur və soylu əsgəri olan türk oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edirəm". 1918-ci il sentyabrın 17-də Azərbaycan hökuməti artıq Gəncədən Bakıya köçdü. Bakı şəhəri Azərbaycan Xalq Cümhuriyyətinin inzibati paytaxtı oldu.

# BÖYÜK BRİTANİYA ÜÇÜN YENİ SINAQ

ABŞ Prezidenti Donald Tramp vahid İrlandiya ideyasını dəstəklədiyini bildirib. O, İrlandiyanın gələcəkdə birləşəcəyini düşündüyünü və bunun “fantastik bir şey” olacağını vurğulayıb.



AZƏR NURİYEV

ABŞ Prezidenti Donald Trampın İrlandiyaya səfəri zamanı səsləndirdiyi fikirlər Şimali İrlandiyanın İrlandiya Respublikası ilə birləşdirilməsi perspektivini yenidən diqqət mərkəzinə gətirib. Tramp ötən həftənin sonu Dublində İrlandiyanın Baş naziri Miçel Martin ilə görüşü zamanı jurnalistlərin sualını cavablandırarkən vahid İrlandiya ideyasını dəstəklədiyini bildirib. ABŞ Prezidenti İrlandiyanın gələcəkdə birləşəcəyini düşündüyünü və bunun “fantastik bir şey” olacağını söyləyib. Eyni zamanda Tramp bu məsələdə Böyük Britaniyanın da söz sahibi olduğunu vurğulayıb.

İrlandiya adasının siyasi parçalanması uzun və mürəkkəb tarixi proseslərin nəticəsidir. 1921-ci ildən etibarən adanın böyük hissəsi Böyük Britaniyadan ayrılaraq müstəqil dövlət olub. Adanın şimalındakı altı qraflıq isə Böyük Britaniyanın tərkibində qalıb və Şimali İrlandiya adlandırılıb. Bu bölgü uzun illər ərzində milli kimlik, dini mənsubiyyət və siyasi gələcəklə bağlı ciddi qarşıdurmalara səbəb olub.

### ƏNƏNƏVİ EHTİYATLILIQDAN FƏRQLİ MÖVQE

Maraqlıdır ki, indiyədək ABŞ prezidentləri ənənəvi olaraq Şimali İrlandiyanın statusu məsələsində ehtiyatlı mövqe nümayiş etdiriblər. 1998-ci ildə imzalanan Belfast sazişindən sonra da Vaşinqton əsasən tərəflər arasında sülhün qorunmasına və siyasi dialoqun davam etdirilməsinə üstünlük verib. İndi Trampın açıq şəkildə vahid İrlandiya ideyasına müsbət münasibət bildirməsi bu ənənəvi ehtiyatlılıqdan fərqlənir.

Diqqət çəkən digər bir olay sentyabrın 14-də Şotlandiyanın, Uelsin və Şimali İrlandiyanın birinci nazirlərinin Kardiffdə bir araya gələrək qarşılıqlı anlaşma memorandumu imzalamalarıdır. Tərəflər bərpa olunan enerjinin inkişafı, daha güclü və ədalətli iqtisadiyyatın yaradılması, Avropa ilə münasibətlərin möhkəmləndirilməsi və hər bir xalqın öz gələcəyini müstəqil şəkildə müəyyən etmək hüququnun dəstəklənməsi də daxil olmaqla, ümumi maraq kəsb edən praktiki sahələrdə əməkdaşlıq edəcəklər.



## FİKİR AYRILIQLARI UZUN İLLƏRDİR MÖVCUDDUR

Eyni zamanda nazirlər hər bir millətin öz müqəddəratını təyinetmə hüququnu dəstəklədiklərini bəyan ediblər. Onlar iqtisadi və digər sahələrdə əməkdaşlıq barədə də razılığa gəliblər. Memorandumda yaxın beş il ərzində Şotlandiyanın müstəqilliyi ilə bağlı yeni referendum keçirməsinə çağırış əks olunub. Böyük Britaniya və İrlandiya hakimiyyətlərinə sərhəd barədə referendumun tarixini 2030-cu ilə qədər təyin etməyə çağırış da var.

Ümumiyyətlə, Böyük Britaniya uzun illər vahid dövlət kimi təqdim olunsa da, onun siyasi və tarixi quruluşu heç vaxt homogen olmayıb. İngiltərə, Şotlandiya, Uels və Şimali İrlandiyanın fərqli tarixi, milli kimliyi, dili, mədəniyyəti və siyasi ənənələri mövcuddur. Bu fərqlər xüsusilə son onilliklərdə keçirilmiş referendumlar fonunda daha qabarıq şəkildə üzə çıxıb.

Referendumlar bu ərazilərdə yalnız seçki mexanizmi olmayıb. Onlar milli kimlik, siyasi muxtariyyət, hakimiyyət bölgüsü, müstəqillik və gələcək dövlət quruluşu ilə bağlı cəmiyyətin mövqeyini müəyyənləşdirən mühüm siyasi vasitəyə çevrilib. Şotlandiya və Uelsdə referendumlar əsasən səlahiyyətlərin London mərkəzi hökumətindən yerli parlamentlərə ötürülməsi məsələsini gündəmə gətirib. İrlandiya məsələsində isə referendum daha fundamental xarakter daşıyaraq Şimali İrlandiyanın gələcək statusu və adanın mümkün birləşməsi məsələsi ilə əlaqələndirilib.



Donald Tramp

### TRAMPIN FİKİRLƏRİNƏ SƏRT REAKSİYA

Trampın açıqlamasından sonra Böyük Britaniya hökuməti də İrlandiyanın birləşməsi rəsmi mövqeyinin dəyişmədiyini açıqlayıb. Hökumət bildirib ki, hazırda Şimali İrlandiyanın statusunun dəyişdirilməsi ilə bağlı referendumun keçirilməsini əsaslandıracaq ictimai dəstək mövcud deyil.

Şimali İrlandiyanın əsas unionist siyasi qüvvələri də Trampın fikirlərinə sərt reaksiya veriblər. Demokratik Unionist Partiyasının lideri Kevin Robinson bildirib ki, regionun konstitusion gələcəyini London, Dublin və ya Vaşinqtondakı siyasətçilərin açıqlamaları deyil, Şimali İrlandiya xalqı müəyyən etməlidir.

## PROSES BÖYÜK BRİTANİYANIN PARÇALANMASINA GƏTİRİB ÇIXARA BİLƏRMİ?

ABŞ uzun illər ərzində Şimali İrlandiyada sülh prosesinin mühüm xarici aktorlarından biri olub. Vaşinqtonun 1998-ci il sülh prosesindəki rolu ABŞ-İrlandiya münasibətlərində xüsusi siyasi çəkidədir. Trampın “vahid İrlandiya” ideyasına açıq rəğbət nümayiş etdirməsi bu səbəbdən sadəcə şəxsi fikir kimi qiymətləndirilməyə bilər. Bu, eyni zamanda ABŞ-İrlandiya münasibətlərinin siyasi gündəmində adanın gələcək statusu məsələsinin yenidən daha yüksək səviyyədə müzakirəyə çıxarılmasıdır. Bununla belə, Tramp özü də Böyük Britaniyanın məsələdə söz sahibi olduğunu etiraf edib. Bu isə ABŞ-ın İrlandiyanın birləşməsi ilə bağlı konkret siyasi proses başladacağı barədə nəticə çıxarmağa əsas vermir.

İndi əsas sual budur: Şotlandiya, Uels və Şimali İrlandiyada milli siyasi qüvvələrin güclənməsi Böyük Britaniyanın parçalanmasına gətirib çıxara bilərmi? Hazırda bu barədə nəticə çıxarmaq asan deyil. Prosesi alovlandırmaq istəyən xarici qüvvələr aktivləib, amma eyni zamanda yaddan çıxarmaq lazım deyil ki, 2014-cü ildə Şotlandiyada keçirilən müstəqillik referendumunda seçicilərin əksəriyyəti ingilislərlə ittifaqın saxlanılmasına səs vermişdilər.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

MÜSAHİBƏ Kaspi 19 SENTYABR ŞƏNBƏ 2026 9

DÜNYANIN ƏN NÜFUZLU ALİMLƏRİNİN YENİ REYTİNQİNDƏ YER ALAN AZƏRBAYCANLI ALİMLƏ MÜSAHİBƏ

# "MƏNİM ÜÇÜN ƏSAS OLAN ELMDƏ İZ QOYMAQDIR"



SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Professor Abdulla Sofiyev:** "Reytinqlər dəyişə bilər, istinadların sayı zaman keçdikcə arta və ya azala bilər, lakin elmə qazandırılan orijinal fikir, metod və ya nəticə qalıcıdır. Bununla yanaşı, yetişdirdiyiniz tələbələrin və gənc tədqiqatçıların uğurlu olduğunu görmək də xüsusi xoşbəxtlikdir".

Dünyanın ən nüfuzlu alimlərinin yeni reytinqində azərbaycanlı alimin də adı yer alıb. Research.com platformasının 2025/2026-cı il üzrə hazırladığı "Best Scientists in the World" siyahısında professor Abdulla Sofiyev mexanika və aerokosmik mühəndislik ("Mechanical and Aerospace Engineering") sahəsində Azərbaycandan reytinqə düşən alimlər arasında birinci yerdə qərarlaşıb. İstanbul Ticarət Universitetinin professoru A.Sofiyevin mexanika və aerokosmik mühəndislik istiqamətində göstəriciləri kifayət qədər ciddi elmi nəticə kimi qiymətləndirilir. Alim özü isə bu nəticəni yalnız şəxsi uğur kimi deyil, uzun illərə dayanan elmi əməyin, güclü təhsil bazasının, ardıcıl çalışmaların, müxtəlif ölkələrdə əldə etdiyi elmi təcrübələrin və güclü beynəlxalq əməkdaşlıqların təbii nəticəsi kimi görür.

## "ÇOX ÇALIŞSAN, YAXŞI ALİM OLA BİLƏRSƏN..."

● **Professor, "Research.com"un dünyanın ən nüfuzlu alimlərini əhatə edən reytinqində azərbaycanlı alimlər arasında ilk pillədə yer almağınız münasibətilə sizi təbrik edirik! Bu nəticə sizin üçün nə ifadə edir?**

● Əvvəla, səmimi təbrikiniz üçün çox təşəkkür edirəm! Bu, mənim üçün böyük şərəfdir. Elmi fəaliyyətim əsasən tətbiqi riyaziyyat, nəzəri və tətbiqi mexanika, kompozit və nanokompozit konstruksiyaların stabilliyi və vibrasiya problemləri üzərində cəmlənir. İllər ərzində eyni elmi istiqamətdə ardıcıl şəkildə çalışmaq, beynəlxalq nəşrlərdə dərc edilmək və bu işlərə dünya miqyasında istinadların edilməsi bu nəticənin əsasını təşkil edib.

Mənim üçün ən dəyərli olan tədqiqatlarımızın digər tədqiqatçılar tərəfindən istifadə edilməsi və elmin inkişafına töhfə verməsidir. Dünyanın müxtəlif ölkələrindən bir çox gənc həmkarım işlərimi yaxından izləyib, inkişaf etdirdiyim analitik həlləri kompüter dəstəkli üsullarla genişləndirərək yeni nəticələr əldə ediblər. Mən yüksək istinad saylarını yalnız rəqəmsal uğur kimi deyil, tədqiqatların elmi ictimaiyyət tərəfindən istifadə edildiyinin, inkişaf etdirildiyinin və yeni araşdırmalara ilham verdiyinin göstəricisi kimi qiymətləndirirəm.

## İSTEDAD VƏ SƏYLƏR

● **Alim olmaq xəyalınız necə başladı? Bugünkü elmi istiqamətinizin formalaşmasında hansı dövrlər və hansı insanlar həlledici rol oynayıb?**

● Universitetin ilk illərində bütün fənlərimdən əla qiymətlər aldıqdan sonra gələcəkdə yaxşı bir alim olmağı ciddi şəkildə xəyal etməyə başladım. Riyazi analiz müəllimim professor Malik Cəbrayılov məndəki bu qabiliyyəti görərək, "çox çalışsan, gələcəkdə yaxşı alim ola bilərsən"- deyə məni həvəsləndirdi. Təhsilim riyaziyyat əsaslı olsa da, doktorantura təhsilimdə (aspiranturada) tale məni görkəmli mexanik-alim, professor Vaqif Hacıyevlə qarşılaşdırdı. Beləliklə, doktorantura təhsilimi sırf riyaziyyat üzrə deyil, mexanika sahəsində davam etdirdim. Bu, elmi həyatımda ən mühüm istiqamət dəyişikl-iklərindən biri idi. Mexanika üzrə bazam hələ istədiyim səviyyədə deyildi. Zamana ehtiyacım var idi və hərbi xidmət işimə yaradı. Həmin dövrün şərtlərinə görə doktoranturaya başlamazdan əvvəl hərbi xidmət keçmək məcburi idi. Hərbi xidmət zamanı gecə növbələrindən qalan vaxtlarda mexanika öyrənərək bu çatışmazlıqlarımı aradan qaldırmağa çalışdım. Bu gün geriyə baxanda görürəm ki, elmi həyatımın təməlində yalnız istedad deyil, çatışmayan sahəni dərk edib onu çox çalışaraq tamamlamaq səyi də mühüm yer tutur. Mən hər şeydə birinci idim. Hər zaman oxumağım, öyrənməyim mənə uğur qazandırdı.

● **Bəs valideynlərinizin qazandığınız uğurlarda nə qədər dəstəyi vardı?**

● Elmi inkişaf heç vaxt təkbaşına gedilən proses deyil. Qarşımızı açan, güvən verən və çətin zamanlarda yanımızda olan insanların töhfəsi son dərəcə dəyərlidir. Xüsusilə doktorantura təhsilim zamanı mərhum anam və atamın göstərdikləri böyük fədakarlığı ayrıca vurğulamaq istərdim. Hələ bakalavr tələbəsi olduğum vaxt məhdud imkanlarına baxmayaraq, atam cib xərcliyimdən əlavə riyaziyyat kitabları almağım üçün ayrıca pul göndərirdi. Həmin illərdə bu, mənim üçün yalnız maddi dəstək deyildi, eyni zamanda oxumağa, öyrənməyə və elmə yönəlməyim baxımından verilmiş çox güclü təşviq idi. Anamın və atamın maddi və mənəvi dəstəyi, səbrləri və mənə olan inamları elmi yolçuluğumun ən güclü dayaqlarından biri oldu. Bu gün geriyə baxanda əldə etdiyim uğurlarda onların əməyinin və fədakarlığının çox böyük payı olduğunu daha yaxşı görürəm.

Almaniyada Karlsrue Universitetində müxtəlif dövrlərdə əldə etdiyim təcrübələrin də mənim üçün mühüm yeri var. Türkiyəyə gəldikdən sonrakı ilk illərim isə düşüncə dünyam baxımından ayrıca əhəmiyyət daşıyır. Artıq 30 ildən çoxdur ki, Türkiyədə çalışıram. Bu illər ərzində mənə dəstək olanlara hörmət və sayğı ilə yanaşdım, amma heç kimin qulu olmadım.



## "ELMƏ UZUNMÜDDƏTLİ VƏ ARDICIL DÖVLƏT SİYASƏTİ KİMİ YANAŞILMALIDIR"

● **Türkiyədə elmi fəaliyyətlə məşğul olmağınız sizə Azərbaycan və Türkiyənin elmi mühitlərini müqayisə etmək imkanı verir. Bu iki ölkənin elm sistemi arasında hansı əsas fərqləri görürsünüz?**

> *"Elmdə məqsəd yeni bir şey söyləmək və öz elmi xəttini formalaşdıra bilməkdir. Dünyadakı inkişafı izləyən və elmin mətbəxindən uzaqlaşmayan gənc tədqiqatçının beynəlxalq səviyyədə uğur qazanmaq şansı çox yüksəkdir."*

● Türkiyədə universitetlərin sayının, tədqiqat infrastrukturunun, layihə dəstəklərinin və beynəlxalq nəşr təcrübəsinin daha geniş miqyasda inkişaf etdiyini deyə bilərəm. Xüsusilə TÜBİTAK kimi qurumların layihə mədəniyyətinin formalaşmasında, gənc tədqiqatçıların dəstəklənməsində və universitet-sənaye əməkdaşlığının inkişafında mühüm rolu var. Azərbaycanda isə çox güclü elmi ənənə, yaxşı yetişmiş tədqiqatçılar və xüsusilə riyaziyyat, mexanika, fizika, kimya və mühəndislik sahələrində ciddi potensial var. Məncə, əsas məsələ bu potensialın daha sistemli şəkildə dəstəklənməsi və beynəlxalq elm dünyası ilə daha güclü şəkildə inteqrasiya edilməsidir.

Azərbaycanın dünya elm arenasındakı mövqeyini gücləndirmək üçün rəqabətə əsaslanan tədqiqat fondlarının artırılması, gənc alimlərin uzunmüddətli şəkildə dəstəklənməsi, güclü tədqiqat qruplarının və mərkəzlərinin yaradılması, beynəlxalq birgə layihələrin təşviq edilməsi və uğurlu alimlərin ölkədəki universitetlərlə daha fəal şəkildə əlaqələndirilməsi lazımdır. Bundan əlavə, qiymətləndirmə sistemlərində yalnız nəşrlərin sayına deyil, tədqiqatın keyfiyyətinə, beynəlxalq təsirinə, istinad səviyyəsinə, patentə və texnologiyaya çevrilmə potensialına da əhəmiyyət verilməlidir.

Mən Azərbaycanın insan resursları baxımından bu sıçrayışı həyata keçirə biləcək potensiala malik olduğuna inanıram. Əsas məsələ elmə uzunmüddətli və ardıcıl dövlət siyasəti kimi yanaşılmasıdır.

## "XARİCƏ BEYİN KÖÇÜ", YOXSA "XARİCDƏN ELMİ BİLİK AXINI?"

● **Azərbaycanlı alimlərin xaricdə çalışması sizcə, "beyin axını" kimi qiymətləndirilməlidir, yoxsa əksinə, ölkənin elmi potensialının dünyaya çıxışı kimi?**

● Məncə, azərbaycanlı alimlərin xaricdə çalışmasını yalnız "beyin köçü" ilə izah etməkolmaz. Bunun tarixi səbəblərini də nəzərə almaq lazımdır. Sovet İttifaqının dağılmasından sonra Azərbaycandan güclü alim miqrasiyası baş verdi. Həmin dövrdə bir çox tədqiqatçı elmi fəaliyyətini davam etdirmək üçün lazımi iş mühitini, laboratoriyanı və akademik imkanları inkişaf etmiş ölkələrdə axtarmağa məcbur oldu. Bütün çətinliklərə baxmayaraq, bu alimlərin böyük əksəriyyəti getdikləri ölkələrdə ayaqda qalmağı və uğur qazanmağı bacardı. Hətta onların bir qismi çalışdıqları universitet və tədqiqat mərkəzlərində elmi baxımdan aparıcı, bir növ lokomotiv rolunu oynayan tədqiqatçılara çevrildilər. Bu, Azərbaycanın malik olduğu insan resurslarının gücünü də göstərir. Lakin bu köçün ölkə elminə zərər vurduğunu da qəbul etmək lazımdır. Elmdə nəsillər arasında formalaşmış ənənəvi əlaqə əhəmiyyətli dərəcədə qırıldı. Ölkədə qalan bir çox alim üçün müəyyən dövrdə prioritet elmi fəaliyyət deyil, həyat mübarizəsi oldu. Beynəlxalq elmi mühitdən və elmin mətbəxindən uzaqlaşmaq da təbii olaraq tədqiqat fəaliyyətinin zəifləməsinə səbəb oldu. Bu gün belə həmin dövrün bəzi təsirlərini hiss edirik. Son illərdə isə Azərbaycanda elmin yenidən gücləndirilməsi, orijinal tədqiqatların ortaya çıxarılması və beynəlxalq inteqrasiyanın artırılması istiqamətində mühüm islahatlar və yeni axtarışlar görürük. Xüsusilə xaricdə çalışan azərbaycanlı alimlərin ölkə ilə birgə layihələr, nəşrlər, tələbə yetişdirilməsi və elmi məsləhətçilik vasitəsilə daha fəal əməkdaşlıq qurması müsbət tendensiyadır. Bu səbəbdən bu gün məsələyə yalnız "xaricə beyin köçü" kimi deyil, eyni zamanda "xaricdən Azərbaycana elmi bilik, təcrübə və əməkdaşlıq axını" kimi də baxmaq lazımdır. Əgər bu əlaqə düzgün qurularsa, bundan ən böyük faydanı gənc tədqiqatçılar görəcək.






Fotolar: Tapdıq Abdullayev /Global Media Group

## "Gənc alimlərə səbirli olmalarını tövsiyə edərdim"

● **Gənc bir azərbaycanlı tələbə sizə "alim olmaq istəyirəm, haradan başlayım?" deyə müraciət etsəydi, ona ilk növbədə nə tövsiyə edərdiniz?**

● Ona ilk olaraq möhkəm təməl yaratmasını tövsiyə edərdim. İxtisas sahəsinin əsas bilikləri möhkəm olmadan davamlı elmi uğur əldə etmək çətindir. Bununla yanaşı, yaxşı səviyyədə ingilis dili öyrənmək, beynəlxalq ədəbiyyatı müntəzəm izləmək, proqramlaşdırmaya və müasir hesablama üsullarına yiyələnmək bu gün artıq seçim deyil, zərurətdir.

İkincisi, yaxşı elmi məsləhətçi və düzgün tədqiqat mühiti tapmasını tövsiyə edərdim. Gənc tədqiqatçının ilk illərində kiminlə çalışdığı, hansı elmi mədəniyyət daxilində yetişdiyi və hansı problemlərə yönəldiyi gələcəkdəki elmi kimliyini böyük ölçüdə müəyyənləşdirir.

Digər mühüm məqam budur: elm düzxətli inkişaf etmir. Müəyyən dövrlərdə müxtəlif sahələrdə formalaşan bilik toplusu bir neçə il sonra elmin yeni istiqamətlərini və prioritetlərini müəyyən edə bilər. Xüsusilə fənlərarası tədqiqatlar bəzən bir elm sahəsinin inkişaf istiqamətini tamamilə dəyişə bilər. Gənc tədqiqatçı yalnız bu gün populyar olan mövzulara deyil, sabah hansı problemlərə yönələcəyinə də baxa bilməlidir.

Buna nail olmağın yollarından biri nüfuzlu beynəlxalq konfranslarda iştirak etmək və ya ən azı bu konfranslarda təqdim olunan işləri yaxından izləməkdir. Çünki elmi məqalələr dərc edildikdə çox vaxt tədqiqatın müəyyən mərhələsi tamamlanmış olur; konfranslarda isə yeni ideyaların hansı istiqamətə getdiyini daha erkən görmək mümkündür.

Eyni şəkildə, müəyyən elmi yetkinliyə çatdıqdan sonra beynəlxalq jurnallarda rəyçi kimi fəaliyyət göstərmək də son dərəcə dəyərlidir.

Sonda isə onlara səbirli olmalarını tövsiyə edərdim. Elmdə məqsəd yalnız çoxsaylı məqalə dərc etdirmək deyil, həqiqətən yeni bir şey söyləmək və öz elmi xəttini formalaşdıra bilməkdir. Marağını itirməyən, dünyadakı inkişafı izləyən və elmin mətbəxindən uzaqlaşmayan gənc tədqiqatçının beynəlxalq səviyyədə uğur qazanmaq şansı çox yüksəkdir.

● **Sizcə, alim üçün ən böyük mükafat nədir: yüksək reytinq, çoxsaylı istinadlar, yeni elmi kəşf, yoxsa yetişdirdiyi tələbələrin uğuru?**

● Məncə, bir alim üçün ən böyük mükafat həqiqətən yeni və qalıcı elmi nəticə ortaya qoya bilməkdir. Çünki reytinqlər dəyişə bilər, istinadların sayı zaman keçdikcə arta və ya azala bilər, lakin elmə qazandırılan orijinal fikir, metod və ya nəticə qalıcıdır. Bununla yanaşı, yetişdirdiyiniz tələbələrin və gənc tədqiqatçıların uğurlu olduğunu görmək də xüsusi xoşbəxtlikdir. Yüksək reytinqlər və çoxsaylı istinadlar, əlbəttə ki, aparılan tədqiqatların beynəlxalq səviyyədə qarşılıq tapdığını göstərir və insanı motivasiya edir. Lakin mənim üçün əsas olan elmdə iz qoymaq və özümdən sonra da davam edəcək bir elmi məktəb və tədqiqat mədəniyyəti yarada bilməkdir.

# SÜRƏT HƏVƏSKARLARI BAKIYA GƏLİR

Minlərlə sürət həvəskarının paytaxtımıza axını gözlənilir. Bakı Qran-Prisi dünya mətbuatının da diqqətindədir.



**Fotolar:** Rüfət Mikayılov/Global Photostock

Bakı növbəti dəfə “Formula-1” yarışlarına ev sahibliyi edəcək. Minlərlə sürət həvəskarının paytaxtımıza axını gözlənilir. Bakı Qran-Prisi dünya mətbuatının da diqqətindədir.

### BAKI QRAN-PRİSİNİN TARİXİNDƏ BİR İLK

Rumıniyanın nüfuzlu “Eurosport” idman nəşri “Formula-1” Azərbaycan Qran-Prisinin tarixində ilk dəfə şənbə günü keçirilməsinə geniş məqalə həsr edib.

Nəşrin Rumıniya redaksiyasında dərc olunan “Azərbaycan Qran-Prisi şənbə günü keçiriləcək! Bakı Qran-Prisi tarixində ilk dəfə baş verəcək bu dəyişikliyin səbəbi” sərlövhəli məqalədə yarışın təqvimindəki yeniliyin səbəbləri, Azərbaycanın Anım Günü və “Formula-1” çempionatının qarşıdakı mərhələsi barədə məlumat verilib.

Məqalədə bildirilir ki, 2026-cı il Azərbaycan Qran-Prisi əvvəlcə sentyabrın 25–27-də keçirilməli idi. Lakin yarışın son gününün Azərbaycanda Anım Gününə təsadüf etməsi səbəbindən təqvimə dəyişiklik edilib. Beləliklə, Bakı şəhər halqasında yarış həftəsonu sentyabrın 24–26-da təşkil olunacaq, əsas yarış isə sentyabrın 26-da baş tutacaq.

“Eurosport” yazır ki, bu qərar Bakı Qran-Prisinin tarixində bir ilkdir. Azərbaycan paytaxtında indiyədək keçirilmiş “Formula-1” yarışlarının əsas mərhələləri bazar gününə təsadüf edirdi.



### “FORMULA-1” TƏQVİMİNDƏKİ ƏN FƏRQLİ TRASLARDAN BİRİ

Beynəlxalq Avtomobil Federasiyasının (FIA) rəsmi məlumatına əsasən, Azərbaycan Qran-Prisinin tarixinin dəyişdirilməsi yerli təşkilatçıların və müvafiq dövlət qurumlarının müraciəti əsasında razılaşdırılıb. Bakı mərhələsi dünya çempionatının 15-ci yarışı olacaq. Pilotlar Azərbaycan paytaxtına İspaniya Qran-Prisindən sonra gələcəklər.

Nəşr Bakı yarışının özünəməxsus xüsusiyyətlərinə də diqqət yetirir. Şəhərin mərkəzi küçələrindən keçən Bakı Şəhər Halqası “Formula-1” təqvimindəki ən fərqli traslardan biri hesab olunur. Tarixi memarlıq abidələrinin yaxınlığından keçən dar döngələr, uzun düzlüklər və yüksək sürət imkanları yarışın gedişində pilotlar üçün müxtəlif çətinliklər yaradır.

“Formula-1”in rəsmi məlumatına görə, Bakı Şəhər Halqasının uzunluğu 6,003 kilometrdir. Pilotlar əsas yarış zamanı 51 dövrə vuraraq ümumilikdə 306 kilometrdən çox məsafə qət edəcəklər. Sentyabrın 24-də sərbəst yürüşlər, sentyabrın 25-də üçüncü sərbəst yürüş və sıralama turu, sentyabrın 26-da isə əsas yarış keçiriləcək.

### İLKİN MƏHDUDİYYƏT BU TARİXDƏN TƏTBİQ EDİLƏCƏK

Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən bildirilib ki, “Formula-1” zamanı şəhər sakinlərinin və sürücülərin rahatlığını təmin etmək üçün bir sıra əsas yollar müəyyən saatlarda nəqliyyatın hərəkəti üçün açıq olacaq. Həmçinin, Üzeyir Hacıbəyli və Puşkin küçələrinin kəsişməsindən Bülbül prospekti istiqamətində yeni tranzit dəhliz təşkil olunacaq. Yarışla əlaqədar müəyyən ərazilərdə nəqliyyat məhdudiyyətləri də tətbiq olunacaq. İlkin məhdudiyyət 19 sentyabr saat 21:00-dan etibarən qüvvəyə minəcək. Puşkin küçəsinin Üzeyir Hacıbəyli küçəsi və Neftçilər prospekti ilə kəsişməsindən olan hissəsində tətbiq ediləcək. Məhdudiyyət tədbirin sonunadək davam edəcək.

Nəqliyyatın İdarəetmə Planına əsasən, Bakı Şəhər Halqasının keçdiyi küçələr və trekin əhatə etdiyi ərazilər 20 sentyabr saat 01:00-dan 28 sentyabr saat 08:00-dək nəqliyyatın hərəkəti üçün bağlı olacaq.

### BAKIDA HƏRƏKƏT ÜÇÜN GİRİŞ VƏ ÇIXIŞ NÖQTƏLƏRİ

Bununla yanaşı, son üç ilin təcrübəsinə əsasən, şəhər sakinlərinin və sürücülərin rahatlığı naminə yarış müddətində bəzi əsas yollar müəyyən saatlarda nəqliyyatın hərəkəti üçün açıq olacaq. Belə ki, 21 və 22 sentyabr tarixlərində aşağıda sadalanan giriş-çıxış nöqtələri səhər 07:00-dan 09:00-dək, axşam isə 18:00-dan 20:00-dək dayanma və durma olmadan nəqliyyatın hərəkəti üçün sərbəst olacaq. 23 sentyabrda isə qeyd olunan yollar səhər 07:00-dan 09:00-dək, axşam 20:00-dan 22:00-dək nəqliyyatın hərəkəti üçün açıq olacaq.

Giriş nöqtələri:

- Salyan şosesindən Neftçilər prospekti və Azneft dairəsi istiqamətində;
- M. Lermontov küçəsindən BMT-nin 50 İlliyi küçəsi və İstiqlaliyyət küçəsi istiqamətində;
- S. Vurğun küçəsindən Ü.Hacıbəyli küçəsi və Bülbül prospekti istiqamətində;
- Bülbül prospektindən Xəqani küçəsi və Neftçilər prospekti istiqamətində;
- Nizami və Puşkin küçələrinin kəsişməsindən Xəqani küçəsi istiqamətində;
- Ü. Hacıbəyli və Puşkin küçələrinin kəsişməsindən Bülbül prospekti istiqamətində.

Çıxış nöqtələri:

- Neftçilər prospektindən Bakı Dəniz Limanı, “Port Baku Mall” və “Crescent Mall” istiqamətində;
- İstiqlaliyyət küçəsindən Azərbaycan prospekti istiqamətində;
- Neftçilər prospektindən Azneft dairəsi, “Dəniz Mall” və Salyan şossesi istiqamətində.

Tranzit dəhlizləri açıq olduğu müddətdə, fövqəladə hallar istisna olmaqla, nəqliyyat vasitələrinin parklanmasına, sərnişinlərin minməsi və enməsinə icazə verilməyəcək. Tranzit dəhlizlərində sürət həddi 50 km/saat olacaq.



# “Üstyurt” investisiya blokları ilə bağlı müzakirə aparılıb

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf Özbəkistanın investisiya, sənaye və ticarət naziri Laziz Kudratov, energetika naziri Şerzod Xocayev ilə görüşüb.

“Report” SOCAR-a istinadən xəbər verir ki, görüşdə iki ölkənin prezidentləri - İlham Əliyev və Şavkat Mirziyoyevin siyasi iradəsi nəticəsində ölkələrimiz arasında münasibətlərin “Əbədi dostluq” səviyyəsinə yüksəldiyi qeyd olunub. Bu xüsusda, iki ölkə arasında iqtisadi əlaqələrin, o cümlədən enerji sahəsində tərəfdaşlığın dinamik inkişaf etdiyi bildirilib.

Söhbət zamanı Özbəkistanda SOCAR brendi altında yeni yanacaqdoldurma məntəqələrinin tikintisi layihəsi, həmçinin “Üstyurt” investisiya blokları üzrə görülən işlər nəzərdən keçirilib. Bu layihələrin ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın inkişafına töhfə verəcəyi vurğulanıb.

Görüşdə SOCAR ilə Özbəkistan şirkətləri arasında əlaqələrin genişləndirilməsi, birgə investisiya layihələrinin həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 1226
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# DİPLOMA GEDƏN YOL QISALIR?

Azərbaycanda təhsilin bakalavr pilləsində üç, magistratura pilləsində isə bir il olması təklif edilir. Mütəxəssislər hesab edirlər ki, təhsil sistemimiz hələlik dünyanın bir sıra ölkələrində tətbiq edilən bu yeniliyə hazır deyil.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanda ali təhsil sistemində illərdir formalaşmış 4 illik bakalavr və 2 illik magistratura modeli dəyişə bilər. Milli Məclisdə təhsil müddətinin qısaldılması, universitetlərə daha çox çeviklik verilməsi və yeni standartların tətbiqi ilə bağlı təkliflər səsləndirilib. Deputatlar dünyada gedən prosesləri əsas gətirərək təhsilin bakalavr pilləsində üç, magistratura pilləsində isə bir il olmasının müzakirəyə çıxarılmasını təklif ediblər.

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə komitənin iclasında çıxışı zamanı ali təhsil sistemində yeni standartların tətbiqinə ehtiyac olduğunu bildirib: "Dünya trendləri nəzərə alınaraq Azərbaycanda da ali təhsil sahəsində mövcud yanaşmalara yenidən baxılması məsələsi nəzərdən keçirilməlidir".

Amma mütəxəssislər bu prosesin birdən-birə həyata keçirilməsinin mümkün olmadığını bildirirlər.

## "GƏRƏK BİZ DƏ BU İSTİQAMƏTDƏ CİDDİ DÜŞÜNƏK"

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədovun sözlərinə görə, artıq dünyanın əksər ölkələrində təhsilin bakalavr pilləsinin müddətinin üç, magistratura pilləsinin isə bir ilə endirilməsi ilə bağlı proseslər gedir: "Artıq ABŞ-də buna keçilib. Gərək biz də bu istiqamətdə ciddi düşünək ki, gələcəkdə gecikməyək". Millət vəkili hesab edir ki, bu prosesdə əsas məqsəd əmək bazarının tələblərinə daha çevik cavab verməkdir: "Son vaxtlar tələbələr bir-iki illik kurslarda oxumaqla daha tez iş tapmaq imkanı əldə edirlər, nəinki uzunmüddətli oxumaqla". Deputat bildirir ki, magistratura təhsilinin müddətinin də bir ilə endirilməsi birdən-birə baş tutması çətindir: "Bunların reallaşması üçün zamana ehtiyac var".

## "UNİVERSİTETLƏRDƏ KÖKLÜ İSLAHATLARA EHTİYAC VAR"

Böyük Britaniyanın Kembric Universitetinin professoru Qərib Mürşüdovun fikrincə, bakalavr təhsilinin müddətini dörd ildən üç ilə salmaq üçün orta məktəb və universitet təhsilini möhkəmləndirmək lazımdır: "Britaniyada bakalavr üç illikdir, amma orta məktəb təhsili daha çoxdur - 12 illikdir. Axırıncı iki il ancaq universitetə qəbul olmaq istəyənlər oxuyurlar. Demək olar ki, axırıncı iki ildə verilən təhsil universitetdəki birinci il təhsilinə uyğun gəlir". Professor bildirir ki, müxtəlif ölkələrdə bakalavr təhsili fərqli olur və həmin ölkədəki orta məktəb təhsili ilə sıx bağlıdır:

"Ona görə universitet təhsili haqda fikirləşəndə ona orta məktəb təhsilindən kənarda baxmaq olmaz". Q.Mürşüdov bakalavr təhsilinin müddətinin azalmasının əmək bazarına ciddi təsir edəcəyinə inanmır: "Təhsilin necə verilməsi əmək bazarına təsir göstərə bilər. Hazırda, məsələn riyaziyyatda verilən dərslər çox abstraktdır, praktikada verilən biliklərin nə demək olduğunu tələbələr başa düşmürlər və onlar bunu universitetdə oxuduqları müddət ərzində öyrənmirlər". Magistratura təhsilinin bir illik olması ilə bağlı təklifə gəlincə, professor Böyük Britaniyada da magistratura təhsilinin bir illik olduğunu bildirir: "Amma nəzərə almaq lazımdır ki, Britaniyada magistratura bakalavrın davamıdır. Əksər magistrlar bakalavr oxuduqları universitetdə magistr təhsili alırlar. Onu da qeyd etmək lazımdır ki, müxtəlif ölkələrdə bu müddət müxtəlifdir. Məsələn, Almaniyada magistrutura iki illikdir". Professor hesab edir ki, vaxtları dəyişməklə keyfiyyəti dəyişmək çətin olacaq: "Keyfiyyəti dəyişmək üçün universitetlərdə köklü islahatlara ehtiyac var".

## VAXT VƏ MALİYYƏ BAXIMINDAN SƏMƏRƏLİ

ADA Universitetinin müəllimi, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Orxan Kərimzadə bakalavr təhsilinin üç ilə endirilməsini məqsədəuyğun hesab edir: "Tədris proqramları optimallaşdırılaraq əsas ixtisas fənlərinə, praktiki məşğələlərə və layihələrə üstünlük verildiyi halda, təhsilin keyfiyyətini qorumaqla bakalavr pilləsini üç il ərzində başa çatdırmaq mümkündür". O.Kərimzadə hesab edir ki, düzgün təşkil olunmuş üçillik bakalavr modeli əmək bazarının tələblərinə daha çevik cavab verə bilər: "Bunun üçün proqramlar işəgötürənlərin ehtiyaclarına uyğun mütəmadi yenilənməli, tələbələrin praktiki bacarıqları, istehsalat təcrübəsi və real layihələrdə iştirakı gücləndirilməlidir". Magistratura təhsilinin bir ilə endirilməsinə gəlincə, İŞ üzvünün fikrincə, peşəkar ixtisaslaşmaya yönəlmiş proqramların bir il olması vaxt və maliyyə baxımından səmərəli ola bilər: "Lakin elmi-tədqiqat, dissertasiya və doktoranturaya hazırlıq nəzərdə tutan proqramlar üçün ikiillik modelin saxlanılması daha məqsədəuyğundur. Əks halda, tədqiqatın keyfiyyəti və tələbələrin akademik hazırlığı zəifləyə bilər".



## Əvvəlcə nəticə, sonra müddət

Təhsil eksperti İlham Əhmədovun sözlərinə görə, hazırda bəzi ölkələrdə üçillik bakalavr proqramları mövcuddur: "Amma baxır bu model hansı mühitdə səmərəli ola bilər. Təhsil siyasətində ən təhlükəli yanaşmalardan biri selektiv beynəlxalq müqayisədir. Hansısa ölkənin yalnız bir parametrini götürüb deyirik: onlarda bakalavr təhsili üç ildir, qoy bizdə də belə olsun. Amma həmin ölkənin digər parametrlərini nəzərə almırıq". Ekspertin fikrincə, bakalavr təhsilinin müddətinin üç və ya dörd il olması öz-özlüyündə hələ keyfiyyət göstəricisi deyil: "Mühüm olan təqvim ili deyil, akademik yük və öyrənmə nəticələridir. Azərbaycan ali təhsilində problem bakalavrın dörd il oxuması deyil. Problem odur ki, biz bu dörd ildə tələbəyə konkret olaraq nə öyrədə bilirik? İndi bizə bu sualın cavabını tapmaq vacibdir". Ekspertin fikrincə, bakalavrı üç ilə endirib magistraturanı olduğu kimi saxlamaq da düz qərar olmaz: "Təhsil siyasətində mühüm bir qaydaya əməl etməliyik: əvvəlcə nəticəni müəyyənləşdirməli, sonra ona çatmaq üçün lazım olan müddəti müəyyən etməliyik".



Ceyhun Məmmədov

# MƏHSUL VAR, QAZANC YOX



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Fermer südün litrini 15 qəpiyə sata bilmir, marketlərdə isə bu məhsul 2,5-3 manata təklif olunur. Bu təzad haqlı suallar doğurur.



Bir müddət əvvəl fermer Emin Həsənovun təsərrüfatında əldə etdiyi südü alış qiymətinə etiraz əlaməti olaraq yerə tökməsi məhsulun fermerdən alış qiyməti məsələsini yenidən gündəmə gətirib. Fermerdən südün bir litrini 15 qəpiyə almaq istəyirlər. O, bu qiymətin gəlir bir tərəfə dursun, heç heyvanların yem xərclərini qarşılamadığını vurğulayırdı. Sosial şəbəkələrdə yayılan görüntüdən sonra süd toplayan məntəqələrdən ona sentyabrdan etibarən südü 60 qəpikdən alacaqları bildirilsə də, fermer bu qiyməti də qənaətbəxş hesab etmir. Digər tərəfdən, marketlərdə südün litri 2,5-3 manata satılır. Fermerdən alınan süd ilə marketdə satılan süd arasında qiymət fərqi bu qədər böyük olmalıdırmı?

### "BU QİYMƏT TƏSƏRRÜFAT XƏRCLƏRİNİ QARŞILAMIR"

Kənd təsərrüfatı üzrə ekspert Xaliq Məmmədovun sözlərinə görə, Azərbaycanda süd istehsalı ilə bağlı əsas problem mal-qaranın məhsuldarlığı ilə bağlıdır: "Əvvəlki illərin statistikasında ölkədə təxminən 2 milyon 200 min baş iri buynuzlu mal-qara var idi. İndiki statistik göstəricilərə görə isə bu rəqəm təxminən 300 min baş azalıb. Bu da həm ət, həm də süd və süd məhsulları üzrə idxaldan asılılığın artmasına səbəb olur. Burada əsas məsələ yalnız mal-qaranın sayını artırmaq deyil. Daha vacib məsələ yüksək məhsuldar və damazlıq cinslərin sayının artırılmasıdır. Azərbaycanda hazırda bir inəkdən orta hesabla gündə 7-11 litr süd alınır. Halbuki yüksək məhsuldar cinslərdə bu göstərici əhəmiyyətli dərəcədə yüksək ola bilər".

X.Məmmədovun fikrincə, südün maya dəyərinin formalaşmasında yem də əsas amillərdən biridir: "Azərbaycanda qüvvəli yemlərdən istifadə səviyyəsi aşağıdır. Əgər bir heyvandan gündə cəmi 7 litr süd alınırsa və həmin süd 15 qəpiyə satılırsa, bu qiymətin nə təsərrüfatın xərclərini, nə də fermerin yaşayış xərclərini qarşılaması mümkündür".



Xaliq Məmmədov

## "Orta satış qiyməti 75-90 qəpikdir"

Ekspert bildirdi ki, bütün fermerlərin südü 15 qəpiyə satdığını düşünmək düzgün deyil. Azərbaycanda südün orta satış qiyməti təxminən 75-90 qəpik arasında dəyişir: "Süd emalı müəssisələri də südü orta hesabla bu qiymət aralığında alırlar. Ayrı-ayrı hallarda hansısa fermerin südünü 15 qəpiyə satması və ya bu qiymətdən başqa alıcı tapa bilməməsi mümkündür. Südün qiymətinin formalaşmasında tədarük məsələsi də mühüm rol oynayır. Emal müəssisəsinin kəndlərdən və rayonlardan süd toplamaq üçün göndərdiyi nəqliyyat vasitələri və bunun yaratdığı xərclər alış qiymətinə təsir edir. Buna görə fermerin südünü ədalətli qiymətə sata bilməsi üçün düzgün tədarük və təchizat zəncirinin qurulması vacibdir. Azərbaycanda bir sıra rayonlarda süd emalı müəssisələri mövcud olsa da, onların fəaliyyət göstərmədiyi hallar da var. Bunun əsas səbəblərindən biri son məhsulun maya dəyərinin yüksək olması və həmin məhsulların daxili bazarda rəqabət aparmaqda çətinlik çəkməsidir. İdxal olunan süd məhsulları da qiymət baxımından yerli istehsalçıları sıxışdırır".

### "YEM TƏMİNATI DA YAXŞILAŞDIRILMALIDIR"

X.Məmmədov hesab edir ki, məhsuldarlığın artırılması üçün yem təminatı da yaxşılaşdırılmalıdır: "Yüksək məhsuldar mal-qara lazımi yemlə təmin edilmədikdə həm südvermə qabiliyyəti aşağı düşür, həm də heyvanın sağlamlığı ilə bağlı problemlər yaranır. Əgər heyvandarlıqda yüksək məhsuldar, damazlıq mal-qaranın sayı azdırsa, qüvvəli yem istehsalının artırılması da kifayət qədər effektiv nəticə verməyəcək. Yerli cins mal-qara az süd verdiyi üçün fermer bahalı qüvvəli yem almaqda maraqlı olmur".

## "Fermerin qiymət danışıqlarında mövqeyi zəifdir"

İqtisad elmləri üzrə fəlsəfə doktoru Altay İsmayılov isə düşünür ki, regionlarda südün qiymətini müəyyənləşdirən tərəf çox vaxt satıcı deyil, azsaylı alıcılardır: "Süd toplama məntəqələrinin bir, ən yaxşı halda iki şirkət tərəfindən idarə edildiyi ərazilər var. Bu halda alıcı qiymətə ciddi təsir göstərmək və onu müəyyənləşdirmək imkanına malik olur. Nəticədə fermerin qiymət danışıqlarında mövqeyi zəifləyir. Digər mühüm məsələ südün tez xarab olan məhsul olmasıdır. Xüsusilə yay aylarında südün saxlanma müddəti çox qısadır. Fermerin südü qorumaq və soyutmaq imkanı yoxdursa, o, məhsulu ya aşağı qiymətə satmağa, ya da sata bilmədiyi halda itirməyə məcbur qalır. Füzulidə baş verən hadisəyə də bu baxımdan yanaşmaq olar".

A.İsmayılov bildirdi ki, burada əsas məsələlərdən biri fermerin alternativ alıcısının olmamasıdır: "Əgər regionda südü yalnız bir və ya iki şirkət toplayırsa, fermer həmin alıcılardan asılı vəziyyətə düşür. Bu vəziyyətdə rəqabətin artırılması və süd toplayan alıcıların sayının çoxaldılması vacibdir. Kiçik ailə təsərrüfatlarının kooperativ şəkildə birləşməsi də fermerlərin bazardakı mövqeyini gücləndirə bilər. Bir neçə təsərrüfat birlikdə daha böyük həcmdə süd sata, soyutma və saxlama üçün ümumi infrastruktur yarada və alıcılarla daha əlverişli şərtlərlə danışıq apara bilər".

### "SÜD ÜÇÜN MİNİMUM ALIŞ QİYMƏTİ MÜƏYYƏNLƏŞDİRİLSİN"

İqtisadçının fikrincə, əgər müəyyən regionlarda südün qiymətini faktiki olaraq alıcı müəyyənləşdirirsə, bu münasibətin tənzimlənməsi üçün mexanizmlər nəzərdən keçirilə bilər. Məsələn, müəyyən hallarda süd üçün minimum alış qiymətinin müəyyənləşdirilməsi kimi yanaşmalar tətbiq oluna bilər ki, fermer məhsulunu maya dəyərindən aşağı qiymətə satmağa məcbur qalmasın.

A.İsmayılovun sözlərinə görə, fermer üçün alternativ variantlardan biri südü emal edərək pendir və ya kərə yağı kimi məhsullara çevirməkdir. Lakin bu, problemin köklü həlli deyil: "Əsas məsələ fermerin xammalını rəqabətli bazarda ədalətli qiymətlə sata bilməsinə şərait yaratmaqdır. Bunun üçün rəqabətin artırılması, süd toplayan məntəqələrin və emal müəssisələrinin sayının çoxaldılması, istehsalçıların kooperativlərdə birləşməsi və fermerlə alıcı arasında daha balanslı münasibətin yaradılmasıdır".



Altay İsmayılov

# HƏKİMLƏR ÜÇÜN İKİ SEÇİM

Həkimlərin sertifikasiyası ilə bağlı tətbiqi nəzərdə tutulan yeni model ümumilikdə müsbət qarşılanır. Lakin mütəxəssislər nəzərə alınmalı olan bir sıra ciddi məqamların olduğunu da deyirlər.



SEVİNC ABBASOVA

Azərbaycanda tibb işçilərinin sertifikasiyası sistemi yenilənir. Yeni mexanizmə əsasən, həkimlər peşə fəaliyyətlərini davam etdirmək üçün iki alternativdən birini seçə biləcəklər. Onlar ya hər beş ildən bir sertifikasiya imtahanında iştirak edəcək, ya da həmin müddət ərzində Davamlı Peşəkar İnkişaf proqramı çərçivəsində 250 kredit balı toplayaraq sertifikasiyadan keçmiş hesab olunacaqlar.

### "MƏQSƏD HƏKİMLƏRİ CƏZALANDIRMAQ DEYİL"

Səhiyyə naziri Teymur Musayev bildirib ki, sertifikasiya prosesinin əsas məqsədi həkimləri cəzalandırmaq və ya onların fəaliyyətini məhdudlaşdırmaq deyil. Onun sözlərinə görə, məqsəd tibb işçilərinin peşəkar biliklərinin daim yenilənməsini təmin etmək, onların müasir tibbin tələblərinə uyğun fəaliyyət göstərməsinə nail olmaqdır.

Nazirin sözlərinə görə, yaxın vaxtlarda istifadəyə veriləcək yeni rəqəmsal platforma da bu prosesi daha şəffaf və əlçatan edəcək. Platformada sertifikasiya imtahanlarına aid bütün suallar, düzgün cavablar və onların elmi əsaslandırılması yerləşdiriləcək. Bu isə həkimlərə imtahana hazırlaşmaq üçün daha geniş imkan yaradacaq və qiymətləndirmə mexanizmi ilə bağlı sualları minimuma endirəcək.

Bununla belə, yeni mexanizmin tətbiqi ilə bağlı müəyyən narahatlıqlar da səsləndirilir. Son illər Azərbaycanda, xüsusilə regionlarda müxtəlif ixtisaslar üzrə həkim çatışmazlığı müşahidə olunur. Belə bir şəraitdə sertifikasiya tələblərini yerinə yetirə bilməyən və ya qiymətləndirmədən keçə bilməyən mütəxəssislərin fəaliyyətinin məhdudlaşdırılması bəzi ərazilərdə tibbi xidmətin əlçatanlığına təsir göstərə bilər. Digər mühüm məsələ isə regionlarda çalışan həkimlərin davamlı peşəkar inkişaf proqramlarına çıxış imkanları ilə bağlıdır. Əgər bütün həkimlər üçün kredit toplamaq baxımından bərabər şərait yaradılmasa, yeni sistem paytaxt və regionlar arasında mövcud fərqləri daha da dərinləşdirə bilər.

### BEYNƏLXALQ TƏCRÜBƏYƏ UYĞUN MODEL

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov "Kaspi"yə açıqlamasında bildirib ki, yeni model Azərbaycan səhiyyəsində peşəkarlığın və tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi istiqamətində atılmış mühüm addımdır.

Onun sözlərinə görə, tibb elmi sürətlə inkişaf edir, müalicə protokolları və klinik yanaşmalar daim yenilənir. Bu səbəbdən həkimin yalnız ali təhsil zamanı əldə etdiyi biliklərlə bütün peşə fəaliyyəti boyunca çalışması müasir dövrün tələblərinə cavab vermir.

Deputat deyib ki, sertifikasiya sistemi həkimlərin bilik və bacarıqlarını mütəmadi olaraq yenilənməsini təşviq edən mühüm mexanizmdir. O vurğulayıb ki, əsas hədəf həkimlərin davamlı peşəkar inkişafını stimullaşdırmaq və nəticədə vətəndaşlara daha təhlükəsiz, müasir standartlara cavab verən keyfiyyətli tibbi xidmət göstərilməsini təmin etməkdir.

R. Mahmudovun sözlərinə görə, imtahanla yanaşı Davamlı Peşəkar İnkişaf proqramı üzrə kredit toplamaq mexanizmi beynəlxalq təcrübəyə tam uyğundur. ABŞ, Kanada, Böyük Britaniya, Almaniya, Türkiyə və bir çox digər ölkələrdə həkimlərin peşə fəaliyyətinin davam etdirilməsi təkcə imtahan nəticələri ilə deyil, həm də davamlı təhsil proqramlarında iştirak, elmi fəaliyyət, konfranslar, təlimlər və onlayn kurslar vasitəsilə qiymətləndirilir. Onun fikrincə, bu model həkimləri ömürboyu öyrənməyə həvəsləndirir və tibbin sürətlə dəyişən tələblərinə uyğunlaşmağa imkan verir.

## 250 kredit balı əlçatan hədəf sayılır

Deputat hesab edir ki, beş il ərzində 250 kredit balının toplanması düzgün təşkil olunmuş sistem şəraitində tam real göstəricidir. Bu, ildə orta hesabla 50 kredit deməkdir və əgər ölkənin bütün bölgələrində akkreditə olunmuş təlimlər, ixtisasartırma kursları, elmi tədbirlər və məsafədən təhsil imkanları yaradılarsa, həkimlərin böyük əksəriyyəti üçün ciddi problem yaratmayacaq.

R. Mahmudov sertifikasiya imtahanlarının sual bazasının açıq şəkildə təqdim edilməsini də müsbət qiymətləndirib. O bildirib ki, bu addım qiymətləndirmə prosesinin şəffaflığını və obyektivliyini artıracaq, müxtəlif narahatlıqları aradan qaldıracaq. Həkimlər əvvəlcədən hansı biliklərin qiymətləndiriləcəyini bildikləri üçün hazırlıqlarını daha məqsədyönlü qura biləcəklər. Beləliklə, imtahan sadəcə sualları əzbərləmək vasitəsi deyil, peşəkar biliklərin sistemli şəkildə yenilənməsinə xidmət edən mexanizmə çevriləcək.

## Regionlara həssas yanaşma

Deputat həmçinin deyib ki, ölkədə bəzi ixtisaslar üzrə həkim çatışmazlığının mövcudluğu fonunda islahatların həyata keçirilməsi daha həssas yanaşma tələb edir. Bununla belə, yeni mexanizm düzgün tətbiq olunarsa, həkim qıtlığını dərinləşdirməyəcək. Onun fikrincə, bunun üçün keçid dövrü nəzərdə tutulmalı, xüsusilə regionlarda çalışan həkimlər üçün əlavə dəstək mexanizmləri, məsafədən təhsil imkanları və kredit toplamaq baxımından bərabər şərait təmin edilməlidir. İslahatların mərhələli və çevik şəkildə tətbiqi həm tibbi xidmətin keyfiyyətinin yüksəlməsinə, həm də insan resursları ilə bağlı risklərin minimuma endirilməsinə imkan verəcək.

### SERTİFİKASİYA KADR SİYASƏTİ İLƏ UZLAŞDIRILMALIDIR

Sosial-Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynlinin fikrincə isə hazırda tətbiq olunan və Səhiyyə Nazirliyinin təklif etdiyi sertifikasiya modelini tam mükəmməl hesab etmək doğru deyil.



Rəşad Mahmudov



İlqar Hüseynli

Onun sözlərinə görə, həkimlərin qiymətləndirilməsi yalnız test imtahanı ilə məhdudlaşmamalı, bu prosesdə onların yaşı, praktik təcrübəsi, peşə fəaliyyəti ərzində yol verdikləri nöqsanlar, pasiyentlərlə münasibətləri və etik davranışları da nəzərə alınmalıdır.

Ekspert hesab edir ki, sertifikasiya prosesi çərçivəsində könüllü əsaslarla ixtisas dəyişmək istəyən həkimlər üçün də imkan yaradılmalıdır. Onun sözlərinə görə, belə həkimlər müvafiq klinikalarda altı aylıq hazırlıq kursu keçdikdən sonra yeni ixtisas üzrə sertifikasiya imtahanı verə və sertifikat əldə edə bilərlər. Bu yanaşma həm həkimlərin peşə inkişafına töhfə verər, həm də ölkədə çatışmayan ixtisaslar üzrə kadr təminatını gücləndirər.

Ekspert hesab edir ki, sertifikasiya prosesi həkim çatışmazlığının səbəbi deyil. Onun fikrincə, hər bir həkim peşəsini davam etdirmək üçün zəruri nəzəri biliklərə malik olmalıdır. Sertifikasiya imtahanında təqdim olunan test sualları və klinik situasiyalar hər bir mütəxəssisin bilməli olduğu əsas bilikləri əhatə edir. İ. Hüseynli vurğulayıb ki, bu biliklərə yiyələnməyən şəxsin həkim kimi fəaliyyət göstərməsi cəmiyyət üçün daha ciddi risk yarada bilər.

# FINDIQ İXRACININ AZALMASINDAKI SİRR

Azərbaycanda fındıq ixracının fiziki həcmi 22,5 faiz azalıb. Azalmanın əsas səbəbləri arasında daxili tələbatın və emal sənayesinin genişlənməsi göstərilir. Qarşıdakı illərdə yeni bağların məhsuldarlığa keçməsi ilə ixracın artacağı gözlənilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda fındıq ixracının fiziki həcmi azalsa da, bu məhsuldan əldə olunan gəlir artıb. 2026-cı ilin ilk 6 ayında ölkədən 8 341,84 ton meşə fındığı ixrac edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 22,5 faiz azdır. Buna baxmayaraq, ixracın dəyəri 24,7 faiz artaraq 95,58 milyon dollara yüksəlib. Yəni Azərbaycan daha az həcmdə fındıq ixrac etsə də, məhsulu daha yüksək qiymətə satıb.

Amma ixrac həcminin azalması xüsusilə diqqət çəkir. Çünki son illərdə ölkədə yeni fındıq bağları salınır, mövcud sahələr genişləndirilir və fındıqçılığın inkişafına dövlət dəstəyi göstərilir. Bəs bütün bunların fonunda ixrac niyə azalır? Bu, ölkədə fındıq istehsalının azalması ilə bağlıdır, yoxsa məhsulun daha böyük hissəsi daxili bazarda və emal sənayesində istifadə olunur?

### "DAXİLİ TƏLƏBAT ARTIB"

Kənd Təsərrüfatı Nazirliyindən bildirildi ki, 2026-cı ilin ilk 6 ayında fındıq ixracının fiziki həcminin azalmasını bütövlükdə ölkədə fındıq istehsalının eyni dərəcədə azalması ilə əlaqələndirmək doğru deyil: "Belə ki, 2025-ci ildə fındıq istehsalı əvvəlki illə müqayisədə 7 faiz azaldığı halda, 2026-cı ilin ilk yarısında ixracın fiziki həcmindəki geriləmə daha kəskin olub. Bu fərq ixrac dinamikasına yalnız istehsal həcminin deyil, həm də daxili və xarici bazarlardakı tələbin, qiymət konyunkturasının, satış istiqamətlərinin və ixrac bazarlarının strukturunun ciddi təsir etdiyini göstərir. Hazırkı dövrdə ixracın fiziki həcminə təsir edən əsas amillərdən biri məhz daxili tələbatın artmasıdır. Bu artım əhalinin çoxalması, fındıqdan istifadə edən emal müəssisələrinin, xüsusilə şokolad, konfet və digər qida məhsulları istehsalçılarının xammal ehtiyaclarının genişlənməsi ilə bağlıdır. Daxili bazarda formalaşan əlverişli qiymətlər istehsalçı və sahibkarlar üçün məhsulun böyük bir hissəsinin ölkə daxilində satışını iqtisadi baxımdan daha cəlbedici edir".

Həmçinin bildirildi ki, ixracın coğrafi strukturunda da mühüm dəyişikliklər müşahidə edilir. Ayrı-ayrı ənənəvi bazarlara satış azaldığı halda, bəzi yüksək gəlirli bazarlarda ciddi artım qeydə alınıb. Məsələn, ötən ilin müvafiq dövrü ilə müqayisədə İtaliyaya fındıq ixracı fiziki həcmdə 86,6 faiz artaraq 1 028 tondan 1 918 tona, dəyər ifadəsində isə 8,56 milyon dollardan 26,91 milyon dollara yüksəlib: "Bu, Azərbaycan fındığının İtaliya emal müəssisələri tərəfindən yüksək qiymətləndirildiyini və orada premium qiymətlərin formalaşdığını sübut edir. Eyni zamanda, 2026-cı ildə yeni ixrac bazarları da formalaşıb; İsrailə 22 ton, Suriyaya 252 ton, Avstriyaya isə 2,33 ton fındıq göndərilib ki, bu da ixrac coğrafiyasının diversifikasiyası baxımından olduqca müsbət haldır və daha az həcmdə, lakin daha yüksək qiymətə satış strategiyasının uğurla həyata keçirildiyini göstərir".

> "Fındıqçılığın inkişafı yalnız yeni bağların salınması ilə məhdudlaşmamalıdır"

Kənd təsərrüfatı üzrə ekspert Xaliq Məmmədovun sözlərinə görə, Azərbaycan dünyada fındıq ixracına görə üçüncü və dördüncü yerləri bölüşdürür ki, bu da ölkəmizdə fındıqçılığın inkişafı və ixrac potensialının nə qədər böyük olduğunu göstərir: "Son 17 ildə təkcə fındıq deyil, ümumilikdə qoz və digər meyvə bağlarının əkin sahələrinin genişləndirilməsi istiqamətində mühüm işlər görülüb. Dövlət bu sahəni ciddi şəkildə subsidiyalaşdırır və kənd təsərrüfatına göstərilən dövlət dəstəyinə görə Azərbaycan dünyada seçilən ölkələrdəndir. Lakin ayrılan subsidiyaların məhsuldarlığın və ixrac potensialının artırılmasına necə təsir etməsi, onların lazımı vaxtda və düzgün istifadə olunub-olunmaması ciddi iqtisadi təhlil tələb edir. Düşünürəm ki, bəzi subsidiyalar ləğv olunmalı, bəziləri isə artırılmalıdır. Fındıqçılığın inkişafı yalnız yeni bağların salınması ilə məhdudlaşmamalı, əsas diqqət məhsuldarlığın yüksəldilməsinə yönəldilməlidir. Ölkəmizdə uzun müddət əvvəl salınmış köhnə fındıq bağlarına qulluq zamanı aqrotexniki qaydalara çox zəif əməl olunur. Müasir maye gübrələrin tətbiqi, torpağın keyfiyyətinin yaxşılaşdırılması, eləcə də məhsulun vaxtında yığılaraq qurudulması və ixrac standartlarına uyğunlaşdırılması məsələlərində qlobal standartlardan və bu sahədə inkişaf etmiş ölkələrdən hələ də geri qalırıq".

X.Məmmədov bildirdi ki, əgər yalnız ekstensiv inkişaf yolunu seçib əkin sahələrini durmadan artırsaq, gələcəkdə torpaq qıtlığı problemi ilə üzləşərik. Buna görə də intensiv bağçılığa keçid – yəni daha az sahədən daha çox məhsul əldə edilməsi günümüzün ən vacib tələbidir: "Digər tərəfdən, fındıqçılıqda qlobal miqyasda ən geniş yayılmış və ixrac zamanı ciddi problemlər yaradan aflatoksin xəstəliyinə qarşı mübarizə gücləndirilməlidir. Məhsuldarlığı artırmaq üçün ilk növbədə torpağın pH dərəcəsi yoxlanılmalı və ona uyğun spesifik gübrələmə proqramı seçilməlidir. Yalnız bu halda ixracın həcmi artacaq və fermerlərimiz daha çox gəlir əldə edəcəklər. Məsələn, 2026-cı ilin ilk 6 ayında fındıq ixracının fiziki miqdarı azalsa da, dünya bazarında qiymətlərin bahalaşması hesabına əldə edilən mənfəət artıb. Lakin bu, bazarın təbii reaksiyasıdır və uzunmüddətli davam edə bilməz. Əgər gələcəkdə ixrac qiymətləri ucuzlaşarsa və eyni zamanda məhsul qıtlığı yaranarsa, gəlirlər kəskin şəkildə aşağı düşəcək".

## Növbəti 3-5 il ərzində fındıq ixracının artacağı proqnozlaşdırılır

Ekspertin fikrincə, Türkiyə və İspaniya kimi qabaqcıl ixracatçı ölkələrlə, habelə fındıqdan daxili qənnadı sənayesində xammal kimi istifadə edən dövlətlərlə müqayisədə, Azərbaycanda fındıqçılığın ən fundamental problemi məhsuldarlığın aşağı olmasıdır: "Bu problemin həlli isə doğru fındıq sortlarının seçilərək yetişdirilməsindən və müvafiq gübrələmə proqramlarının düzgün tətbiqindən keçir. Bütün bunlara rəğmən, qarşıdakı 3-5 il ərzində ölkəmizin real fındıq ixracı potensialını olduqca yüksək qiymətləndirirəm. Çünki son 5-7 il ərzində Azərbaycanda böyük sahələrdə salınmış yeni fındıq bağları barvermə dövrünə keçdikdə ixrac həcmi mütləq şəkildə artacaq".



# ANA ÖZÜNÜ YAXŞI HİSS EDİR, BƏS KÖRPƏ?

Hamiləlik dövründə müntəzəm tibbi nəzarətin əsas məqsədi yalnız yaranmış problemi müalicə etmək deyil. Mümkün riskləri erkən mərhələdə müəyyənləşdirmək və lazım gəldikdə vaxtında müdaxilə etməkdir.





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

İki qolu olmadan dünyaya gələn və anası tərəfindən imtina edilən körpə haqqında xəbər cəmiyyətdə geniş müzakirələrə səbəb oldu. Hadisənin ən ağrılı tərəfi isə ananın hamiləlik dövründə bir dəfə də olsun həkim müayinəsindən keçməməsidir. Bu acı mənzərə cəmiyyətdə vacib bir həqiqəti yenidən gündəmə gətirdi. Hamiləlik zamanı planlı həkim nəzarəti və müayinələr nə üçün vacibdir, "şikayətim yoxdursa, həkimə getməyə ehtiyac yoxdur" düşüncəsi hansı risklər yarada bilər?

### "İLK HƏFTƏLƏRDƏN TİBBİ NƏZARƏT OLMALIDIR"

Mama-ginekoloq, uzman həkim Zivər Eldarova "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, hamiləliyin ilk həftələrindən etibarən tibbi nəzarət olmalıdır. Həkimin sözlərinə görə, hamiləlik testi pozitiv olduqdan sonra ilk mərhələdə müayinədən keçmək vacibdir: "Hamiləlik 3 əsas mərhələyə - trimestrə bölünür. Birinci trimestr 1-13-cü həftələri, ikinci trimestr 14-27-ci həftələri, üçüncü trimestr isə 28-ci həftədən doğuşa qədər olan dövrü əhatə edir. Hamiləliyin 5-6-cı həftələrində həkimə müraciət etmək məsləhətdir. Bu mərhələdə uşaqlıq daxilində yerləşmə, hamiləlik müddəti və inkişafının ilkin qiymətləndirilməsi aparılır. Eyni zamanda ananın ümumi sağlamlıq vəziyyəti və risk faktorları müəyyənləşdirilir. İlk müraciət zamanı həkimin tövsiyəsinə əsasən, qan və sidik analizləri, qan qrupu və Rh faktoru, qanazlığı və bəzi infeksiyaların qiymətləndirilməsi kimi müayinələr aparıla bilər".

### HAMİLƏLİK BOYUNCA HANSI MÜAYİNƏLƏR APARILIR?

Həkimin sözlərinə görə, birinci trimestrdə aparılan ultrasəs müayinəsi hamiləliyin inkişafının və dölün ilkin anatomik göstəricilərinin qiymətləndirilməsinə imkan verir: "11-14-cü həftələr arasında aparılan ultrasəs müayinəsi dölün inkişafının qiymətləndirilməsi ilə yanaşı, bəzi xromosom anomaliyaları ilə əlaqəli USM markerlərinin müəyyənləşdirilməsinə imkan verir. Bu mərhələdə ikili test də aparıla bilər. İkili test diaqnoz qoymur, müəyyən xromosom anomaliyaları üzrə riski hesablayır".

### "ANOMALİYALAR BİRİNCİ MƏRHƏLƏDƏ GÖRÜNƏ BİLƏR"

Dölün inkişaf qüsurlarının nə vaxt aşkarlana bilməsi məsələsinə toxunan həkim bildirir ki, bəzi struktur anomaliyaları artıq birinci trimestrdə görünə bilər: "Lakin dölün orqanlarının daha ətraflı anatomik qiymətləndirilməsi üçün ikinci trimestrdə aparılan detallı ultrasəs müayinəsi mühüm əhəmiyyət daşıyır. Adətən 18-22-ci həftələrdə aparılan detallı anatomik ultrasəs müayinəsində dölün beyni, ürəyi, onurğası, böyrəkləri, qarın orqanları və ətrafları daha ətraflı qiymətləndirilir. Şübhəli hal aşkarlandıqda əlavə ultrasəs müayinələri, fetal exokardioqrafiya, genetik konsultasiya və digər prenatal müayinələr tələb oluna bilər".



Zivər Eldarova

Kypros Nicolaides

### "Körpənin ilk nəfəsini gözləmədən gələcəyini dəyişə bilərik"

Həkim vurğulayır ki, hamiləlik zamanı bir sıra problemlər heç bir aşkar simptom olmadan inkişaf edə bilər: "Ananın özünü yaxşı hiss etməsi hamiləliyin tamamilə problemsiz getdiyi anlamına gəlmir. Yüksək təzyiq, preeklampsi, hamiləlik diabeti, qanazlığı, bəzi infeksiyalar, dölün inkişafında gerilik və digər risklər planlı müayinələr zamanı müəyyən edilə bilər. Müntəzəm tibbi nəzarətin əsas məqsədi yalnız yaranmış problemi müalicə etmək deyil, mümkün riskləri erkən mərhələdə müəyyənləşdirmək və lazım gəldikdə vaxtında müdaxilə etməkdir. Bu, ana və dölün sağlamlığının dinamik şəkildə izlənilməsidir. Ona görə də heç bir şikayət olmasa belə, həkim nəzarətində olmaq vacibdir".

Böyük Britaniya Kral Kolleci Xəstəxanasında çalışan, "Prenatal tibbin atası" kimi tanınan həkim Kypros Nicolaides bildirir ki, müasir dünyada ana bətni əlçatmaz bir qutu deyil. Müasir USM aparatı həkimə imkan verir ki, dölü sadəcə müşahidə etməsin, onu bir pasiyent kimi ana bətnində müalicə etsin. Hamiləlikdə USM-dən imtina etmək qaranlıq otaqda gözübağlı əməliyyat etməyə bənzəyir. Biz körpənin ilk nəfəsini gözləmədən onun gələcəyini dəyişə bilərik.

## Dünya təcrübəsində USM ilə xilas edilən həyatlar

Dünya tibb praktikasında vaxtında aparılan USM sayəsində bir çox ağır patologiyaların qarşısı ana bətnindəcə alınır. Məsələn, Böyük Britaniya və ABŞ-da 18-22-ci həftələrdə aparılan USM zamanı dölün onurğasında açıq yırtıq (Spina Bifida) aşkar edildikdə, körpə doğulmadan laparoskopik əməliyyat olunur. Əgər bu qüsur vaxtında görünməsə, uşaq ömürlük iflic doğulacaq. Vaxtında olunan müayinə sayəsində isə həmin uşaqlar doğulduqdan sonra sərbəst yeriyə bilirlər.

ABŞ-da aparılan araşdırmalara görə, vaxtında olunan detallı USM sayəsində ürək və ya nəfəs borusu qüsuru öncədən bilinən körpələr doğulan kimi süni tənəffüs aparatına qoşulur və dərhal əməliyyat olunurlar. Məhz müayinə sayəsində xəstəxana heyəti doğuşa tam hazır olur ki, bu da uşaq ölüm faizini 70 faiz aşağı salır.

Dünya təcrübəsi göstərir ki, hamiləlikdə profilaktik müayinələr sadəcə ananın öhdəliyi deyil, dövlət səviyyəsində tənzimlənən məcburi tibbi protokoldur. Beynəlxalq Ultrasəs Cəmiyyətinin (ISUOG) standartlarına əsasən, 18-22-ci həftələrdə aparılan detallı müayinə zamanı mütəxəssis dölün bütün ətraflarını (uzun sümüklər, mil və dirsək sümükləri, əl və ayaq pəncələri) protokollaşdırmağa borcludur. Avropa ölkələrində, məsələn Almaniyada hamilə qadına ilk gündən rəsmi "Ana Pasportu" (Mutterpass) verilir və müayinələrdən imtina edildikdə uşaq doğulduqdan sonra dövlət tərəfindən ödənilən sosial müavinətlərə məhdudiyyət qoyulur. Böyük Britaniya (NHS) və digər Avropa ölkələrində isə hamiləlik müayinələri dövlət və ya icbari sığorta tərəfindən 100 faiz qarşılanır, anaların müayinədən imtinası hüquqi məsuliyyət şərti kimi qeydə alınır.

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
19 SENTYABR ŞƏNBƏ 2026
www.kaspi.az

**Ən mühüm yeniliklərdən biri odur ki, klub və futbolçu müqaviləni imzalayarkən onun vaxtından əvvəl pozulması halında ödəniləcək kompensasiyanı əvvəlcədən razılaşdıra biləcəklər. Müqavilədə məbləğ ümumiyyətlə yazılmayıbsa, bu halda kompensasiya real zərər əsasında müəyyənləşdiriləcək.**

# FUTBOLÇULARIN TRANSFER QAYDALARI DƏYİŞİR

## Futbolçu müqaviləni pozub gedə biləcək?

Yay transfer pəncərəsinin ən çox danışılan hadisələrindən biri reallaşmayan keçid oldu. Xulian Alvaresin “Atletiko” Madriddən “Barselona”ya mümkün keçidi uzun müddət gündəmdə qaldı. Futbolçunun istəyinə baxmayaraq, “Atletiko” futbolçunu satmaq niyyətində olmadığını bildirdi və nəticədə keçid baş tutmadı.

Bu hadisə futbolda çoxdan mövcud olan müqaviləsi davam edən futbolçu getmək istədiyi halda klubun onu nə qədər müddət saxlaya biləcəyi mövzusunu yenidən gündəmə gətirdi. Cavab yaxın gələcəkdə dəyişə bilər. FIFA gələn ilin əvvəlində qüvvəyə minəcək yeni transfer qaydalarını təsdiqləyib.

### DİARRANIN ŞİKAYƏTİ İLƏ DƏYİŞƏN SİSTEM

Yeni qaydaları anlamaq üçün 12 il əvvələ qayıtmaq lazımdır. 2014-cü ildə Fransa millisinin keçmiş futbolçusu Lassana Diarra “Lokomotiv” (Moskva) ilə müqaviləni birtərəfli ləğv etdikdən sonra klub axtarmağa başladı. Lakin onun yeni kluba keçməsi asan olmadı. Həmin dövrdə FIFA qaydaları müqaviləni əsaslı səbəb olmadan pozan futbolçu və onu qəbul edən yeni klub üçün ciddi maliyyə və idman riskləri yaradırdı. Yeni klub əvvəlki kluba ödənilməli kompensasiyaya görə birgə məsuliyyət daşıya bilərdi. Bundan başqa, müqavilə mübahisəsi davam etdiyi müddətdə Beynəlxalq Transfer Sertifikatının verilməsi də problem yarada bilirdi.

Diarra məsələni məhkəməyə apardı. İş Avropa İttifaqı Ədalət Məhkəməsinə qədər getdi və FIFA-nın həmin vaxt qüvvədə olan qaydalarının müəyyən hissələrinin futbolçuların sərbəst hərəkətinə və klublar arasında rəqabətə məhdudiyyətlər yaratdığı müəyyənləşdirildi. Bundan sonra FIFA qaydaları yenidən nəzərdən keçirdi. 2027-ci il qaydaları həmin prosesin nəticəsidir.




Yeni qaydaların ən çox müzakirə ediləcək hissəsi müqavilənin vaxtından əvvəl pozulmasına görə kompensasiyanın hesablanmasıdır. Düzdür, yeni qaydalar futbolçuya istədiyi vaxt müqaviləni birtərəfli ləğv etmək və azad agent olmaq hüququ vermir. Əsaslı səbəb yoxdursa, bu, yenə də müqavilə öhdəliyinin pozulması hesab olunur. Sadəcə, gələn ildən bu nəticənin necə hesablanması daha aydın tənzimlənəcək. Ən mühüm yeniliklərdən biri odur ki, klub və futbolçu müqaviləni imzalayarkən onun vaxtından əvvəl pozulması halında ödəniləcək kompensasiyanın məbləğini əvvəlcədən razılaşdıra biləcəklər. Müqavilədə belə bir məbləğ ümumiyyətlə yazılmayıbsa, bu halda kompensasiya real zərər əsasında müəyyənləşdiriləcək. Yeni qaydalar futbolçu və klub üçün zərərin hansı elementlərdən ibarət ola biləcəyini ayrıca göstərir. Klubun zərərinə futbolçunun xidmətlərinin dəyəri, mümkün transfer gəlirinin itirilməsi, onu əvəzləmək üçün çəkilən xərclər və digər itkilər daxil ola bilər. Futbolçu üçün isə müqavilənin qalan müddətinin dəyəri və digər zərərlər nəzərə alına bilər.

### YENİ KLUB AVTOMATİK MƏSULİYYƏT DAŞIMIR

Dəyişikliklərin ən mühüm hissələrindən biri futbolçunu qəbul edən yeni klubun məsuliyyəti ilə bağlıdır. Əvvəlki sistemdə futbolçunun müqaviləni əsaslı səbəb olmadan pozması halında keçdiyi yeni klub futbolçunun kompensasiya öhdəliyinə görə birgə məsuliyyət daşıya bilərdi. Diarra işində məhz bu mexanizm ciddi suallar doğurmuşdu. 2027-ci ildən yeni klub yalnız futbolçunu əvvəlki müqaviləni pozmağa sövq etdiyi müəyyənləşdirildiyi halda birgə məsuliyyətə cəlb oluna bilər. Bu, bazar üçün kifayət qədər ciddi dəyişiklikdir. Çünki futbolçunun əvvəlki klubundan ayrılması ilə yeni klubun onu qəbul etməsi arasındakı hüquqi münasibət artıq əvvəlki kimi avtomatik qurulmur.

## Futbolçunun öz transferindən pul qazanması mümkün olacaq

Yeni qaydaların başqa diqqətçəkən yeniliyi futbolçunun öz transferindən pay almasıdır. Ümumi prinsip kimi klub və futbolçu transfer haqqından futbolçuya pay verilməsi barədə razılaşa bilərlər. Bundan əlavə, beynəlxalq daimi transferlərdə illik sabit gəliri 150 min avrodan aşağı olan futbolçular üçün xüsusi mexanizm nəzərdə tutulur. Bu halda futbolçuya klubun aldığı transfer haqqının beş faizi ödənilməlidir.

### AZƏRBAYCAN FUTBOLU ÜÇÜN BUNUN MƏNASI NƏDİR?

Bu dəyişikliklər Azərbaycan futbolu üçün də nəzəri məsələ deyil.

Uzun müddət klublarımızın transfer modeli əsasən azad agentlər üzərində qurulurdu. Xaricdən gələn futbolçuların əhəmiyyətli hissəsi müqaviləsiz oyunçular olur, klub transfer haqqı ödəmədən heyətini formalaşdırırdı. Futbolçular da əksər hallarda Azərbaycan klublarından müqavilələri başa çatdıqdan sonra ayrılırdılar.

İndi mənzərə dəyişir. Klublarımız artıq transfer haqqı ödəyərək futbolçu alır, eyni zamanda öz futbolçularını xaricə sata bilir. Bu dəyişikliklə azarkeşlərin münasibəti arasında isə təbii ziddiyyət yaranır. Klubda parlayan futbolçunun xaricdən təklif alması azarkeş üçün çox vaxt yaxşı xəbər deyil. O, həmin futbolçunun komandada qalmasını istəyir. Xüsusilə vacib oyunlardan əvvəl və ya komandanın Avropada iddialı olduğu vaxtlarda “niyə satdınız?” sualı ortaya çıxır.

Amma futbolçu müqaviləsinin sonuna yaxınlaşırsa və daha böyük bazardan ciddi təklif alırsa, onu sadəcə “satmamaq” həmişə real strategiya deyil. Yeni qaydalar bu məsələdə də maraqlı balans yaradır. Klub futbolçu ilə uzunmüddətli müqavilə bağlayaraq onun iqtisadi hüquqlarını qorumağa çalışa bilər. Müqavilədə kompensasiya şərtlərini əvvəlcədən müəyyənləşdirmək də mümkündür. Lakin bu, futbolçunun hər şəraitdə komandada qalmağa məcbur ediləcəyi anlamına gəlmir. Əksinə, yeni sistemin məntiqi ondan ibarətdir ki, klubun futbolçu üzərində müqavilə hüququ ilə futbolçunun əmək bazarında hərəkət etmək hüququ arasında balans qurulsun.

Azərbaycan futbolunun transfer bazarında yeni-yeni qazanc əldə etməyə başladığı bir dövrdə yeni xüsusilə əhəmiyyətlidir. İndi əsas məsələ futbolçunu necə saxlamağın yollarını axtarmaqdan çox, onunla müqaviləni necə düzgün hazırlamaqdır.